Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

18 YANVAR 2020-ci il

№ 9 (4140)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYAN SARKİSYANIN KONSTİTUSİYASINI YENİDƏN LƏĞV EDİR - NİKOL PREZİDENT ADI DAŞIMAQ İSTƏYİR

■ səh. 6 ■

Prezidentin müşavirə tapşırıqlarından sonra Əli Əsədov dərhal işə keçdi... Tədbirlərin səmərəlilik gücünü ekspertlər necə görür... ■ səh. 3 ■

20 Yanvar cinayətinə görə Qorbaçovun Haaqa Məhkəməsinə verilməsi aktuallaşır... ■ səh. 5 ■

Seçki dairəsində ilk təbliğat gününün prosesləri nə göstərdi... ■ səh. 4 ■

Faşizmə pərəstiş məsələsi Rusiya və Ermənistan arasında yeni qalmaqala rəvac verdi... ■ səh. 8 ■

ABŞ-Çin ticarət müharibəsi kiçik sülh sazişi ilə bitdi - Azərbaycana nə dəxli... ■ səh. 6 ■

Lənkəranda kütləvi onkoloji xəstə diaqnozları - həbslər var, saxta pensiya təyinatları faş edilir... ■ səh. 2 ■

Məktəblərimizdə saxta diplomlu müəllimlər, hətta direktorlar da var ■ səh. 12 ■

Qan xərçəngli uşaqlar dövlətin dərmanlarını ala bilmir - Depoda dərman qıtlığının səbəbləri... ■ səh. 15 ■

Təhsil modelimizdə daha bir yenilik - orta məktəbləri vaxtından əvvəl bitirmək mümkün olacaq... ■ səh. 14 ■



## Xarici borclar dünya dövlətlərini batırır, Azərbaycanın isə xilasedici özəllikləri var...

■ səh. 10 ■





Azərbaycanın hərbi arsenalında yeni Rusiya, Belarus, Ukrayna, İsrail, Türkiyə, Pakistan, Çin və Fransa silah-sursatları... ■ səh. 9 ■

Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinə yeni vacib elementlər daxil edir ■ səh. 7 ■

Ermənistanlı nazir Qarabağ üzrə dövlət başçılarının görüşündən açıq şəkildə qaçır... ■ səh. 8 ■

■ səh. 2 ■

Bakı Şəhər Baş Polis İdarəsinin yekun müşavirəsində nazir özü də iştirak etdi



■ səh. 4 ■

ABŞ Azərbaycanda parlament seçkilərinə çoxlu sayda namizədin qeydə alınmasını mühüm fakt kimi dəyərləndirir



■ səh. 4 ■




■ səh. 3 ■

Rusiyanın yeni dövlət quruluşu sistemi səmərəli olsa... Model Azərbaycanda da işləyərmi...



■ səh. 13 ■

"Parklanma ödənişsizdir", ancaq ödəməlisiniz - Bakı küçələrində əcaib məntiq, BNA nə deyir...



# Bakı Şəhər Baş Polis İdarəsinin yekun müşavirəsində nazir özü də iştirak etdi

*Nazir Vilayət Eyvazov BŞBPİ-nin illik fəaliyyətini müsbət qiymətləndirdi*

**Yanvarın 17-də Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə Bakı Şəhər Baş Polis İdarəsində 2019-ci ilin yekunlarına həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan nazir V.Eyvazov Prezident İlham Əliyevin rəhbərliyilə həyata keçirilən məqsədyönlü hüquq-mühafizə siyasəti, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti nəticəsində ölkənin siyasi və sosial-iqtisadi həyatında baş verən davamlı inkişafın ümumən daxili işlər orqanlarının, o cümlədən paytaxt polisinin də fəaliyyətinin daha da təkmilləşdirilməsinə müsbət təsirini vurğulayıb.

Sonra hesabat dövründə paytaxtda cinayətkarlıqla mübarizə, ictimai qaydanın və təhlükəsizliyin təmin olunması, əldə olunmuş nəticələr və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış etmək üçün söz Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidova verilib.

Məruzəçi bildirilib ki, ötən il paytaxtda ümumilikdə 11min 176 cinayət qeydə alınıb ki, onların da 88,6 faizi az ağır, 11,4 faizi isə ağır və xüsusilə ağır növlər olub. 2018-ci illə müqayisədə hesabat dövründə ümumi cinayətlər 5,4, ağır və xüsusilə ağır cinayətlər 2,3, az ağır cinayətlər 5,4, böyük ictimai təhlükə törətməyən cinayətlər 6,6, adam öldürməyə cəhdlər 18,8, dələduzluq 33,9, soyğunçuluq 3,7, quldurluq 3,9, hədə-qorxu ilə tələb etmə 28,9 faiz azalıb.

Cinayətlərin profilaktikasında və açılmasında müasir informasiya texnologiyalarının tətbiqinin böyük əhəmiyyətini qeyd edən Baş İdarə rəisi, "Təhlükəsiz şəhər" xidmətinin operatorları tərəfindən 5 minə yaxın hadisənin aşkarlandığını, kameraların arxiv görüntülərindən istifadə edilməklə 278 bağlı cinayətin açıldığını bildirib.

İl ərzində 34 soyğunçuluq və quldurluq cinayəti törətmiş 78 nəfərdən ibarət 33 qrupun, eləcə də 95 mənzildən oğurluq edən 131 nəfərdən ibarət 57 cinayətkar qrupun ifşa olunduğunu nəzərə çatdıran M.Seyidov narkotiklərlə bağlı aşkar olunan 1.244 fakt üzrə 372 kiloqramdan çox müxtəlif növ narkotik vasitənin qanunsuz dövriyyədən çıxarıldığını, istintaqı tamamlanmış cinayət işləri üzrə vətəndaşlara dəymiş maddi ziyanın isə 94,7 faizinin ödətdirildiyini vurğulayıb.

Məruzə ətrafında çıxış edən Bakı şəhər BPİ-nin aidiyyəti struktur qurumlarının və rayon polis idarələrinin rəisləri hesabat ilində əldə olunmuş müsbət nəticələrlə yanaşı, xidməti fəaliyyətdə yol verilən bəzi nöqsan və çatışmazlıqlara da toxunaraq, onların aradan qaldırılması üçün həyata keçiriləcək tədbirlər barədə məlumat veriblər.




Müşavirəyə yekun vuran Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov 2019-cu ildə paytaxtın polis orqanlarının cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsindəki xidməti fəaliyyətini ümumən müsbət qiymətləndirib. Konkret tapşırıq və tövsiyələrini verən nazir Bakı şəhər BPİ-nin,eləcə də onun aidiyyəti struktur qurumlarının və rayon polis idarələrinin rəhbər heyətindən 2020-ci ildə xidməti fəaliyyətdə əsas diqqəti şəxsi heyət arasındanizam-intizamın möhkəmləndirilməsinə, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının daha da qətiyyətlə alınmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunmasına, ən əsası isə vətəndaş məmnunluğunun yüksək səviyyədə təmin olunmasına yönəltməyi tələb edib.

Qanunla müəyyən edilən vəzifələrin yüksək səviyyədə icrası üçün Prezident İlham Əliyev tərəfindən bütün lazımi şəraitin yaradıldığını, daxili işlər orqan və hissələrinin dövlət qayğısı ilə hərtərəfli əhatə olunduğunu məmnunluqla vurğulayan general-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, bu ali diqqətə və etimada cavab olaraq Bakı şəhər polis qarnizonunun şəxsi heyəti xidməti borcunu bundan sonra da layiqincə yerinə yetirəcək.

# Lənkəranda kütləvi onkoloji xəstə diaqnozları - həbslər var, saxta pensiya təyinatları faş edilir...

***Adil Qeybulla:** "Həkimlə təqaüd və ya başqa güzəştləri təyin edən qurum arasında vasitəçi təsisat olmamalıdır"*

**Azərbaycanın cənub bölgəsində yaşayan onlarla adam onkoloji xəstə olmadığı halda, bu xəstəliklə təqaüdə çıxarılıb. Bu məsələ ilə əlaqədar xeyli adam həbs olunub.**




Həbs olunanlar arasında Lənkəran Rayonlararası Onkoloji Xəstəxanasının baş həkimi Əli Əliyev, bu xəstəxananın həkim-onkoloqları İlyas Səmədov, Muştaba Dədəcanov, xadimə Sələmə Mirzəyeva, Lənkəran Rayonlararası Psixiatriya Xəstəxanasının həkimləri Hüsaməddin Əlicanov və Fərid Məmmədov, Lənkəranın Aşağı Nüvədi və Masallının Xırmandalı kəndlərində yaşayan İsrafil Tağıyev, Musa Əliyev də var.

İttihama görə, Sələmə Mirzəyevanın rəsmi işi xadiməlik olsa da, əslində, kompyuter mütəxəssisi kimi fəaliyyət göstərib. Əlillik dərəcəsi almaq və ya dərəcəni dəyişmək, bu məqsədlə pul vermək istəyən adamları da o tapıb, sənədləri özü hazırlayıb. Söhbət adamlara onkoloji xəstəlikdən əziyyət çəkmələri, onlara təqaüd verilməsi üçün əsas yaradan sənədlərdən gedir.

Psixiatriya Xəstəxanasının həkimləri də belə "müştərilər" tapıb vasitəçilik etməkdə ittiham olunurlar.

Sələmə Mirzəyeva istintaqda əvvəlcə baş həkimin bundan xəbərsiz olduğunu desə də, sonradan Əli Əliyevin əleyhinə ifadə verib. S.Mirzəyevanın sözlərinə görə, pensiya almaq istəyənlərdən təxminən 2-3 min pul, yaxud da o dəyərdə əşya, əmlak (torpaq sahəsi) alıb, gətirib baş həkimə çatdırıb. Baş həkim də pulun əsas hissəsini özü götürüb, hər adama görə 100-200 manat da ona verib. Bu pulun müqabilində əlillik dərəcəsi almaq istəyən şəxs üçün 088 №li forma üzrə saxta göndərişləri kompyuterdə çap edib, Tibbi-Sosial Ekspert Komissiyasına göndəriblər.

Göründüyü kimi, bu işlərin kökündə vətəndaşlara saxta yollarla pensiya düzəltmək niyyətləri durub və həmin əməllər hüquq-mühafizə orqanları tərəfindən ifşa olunub.

Başqa xəstəliklərlə üzrə də qoyulan saxta diaqnozlarla bağlı belə halların qarşısını necə almaq olar?

Tibb elmləri doktoru Adil Qeybulla "Bakı-Xəbər"ə bildirdi ki, birinci növbədə müvafiq qurum ləğv edilməlidir: "Saxta pensiyaların düzəldilməsi ilə bağlı son rəyi də həmin qurum verir. Təxminən 25 il bundan öncə, Azərbaycan yeni müstəqilliyə qovuşanda biz həmin qurumlarda yoxlama apardıq. Tibbi komissiyaya mən rəhbərlik edirdim. Orada dəhşətli neqativliklərin şahidi olduq. Dünyanın hər yerində bu məsələ necə həl edilirsə, bizdə də elə olmalıdır. Həkim xəstəyə diaqnozu qoyur, həmin xəstəyə təqaüd düşürsə, elə həmin sənədlə əlaqədar quruma müraciət edir. Həkimin rəyi başqa bir qurum tərəfindən təkrar dəyərləndirilmir. Bütün məsuliyyəti də diaqnozu qoyan həkim daşıyır. Bəs belə ağır diaqnozla xəstə təqaüdə çıxarılırsa, onda qurum hara baxıb? Çünki onkoloji xəstəliklərə elə-belə baxıb diaqnoz qoymurlar. Bu bir sıra mərhələlərdən keçən prosesdir. Orada mütləq psixoloqun da rəyi olmalıdır. Yaxşı olardı ki, həmin sənədlər ictimailəşəydi. Onda daha ətraflı şərh etmək olardı. Burada, mütləq mənada, korporativ maraqlar rol oynayıb. Sistemli dəyişiklik edilməlidir. Həkimlə təqaüd və ya başqa güzəştləri təyin edən qurum arasında vasitəçi təsisat olmamalıdır. Belə olarsa, məsuliyyət dəqiq müəyyənləşər".

***Məhəmmədəli QƏRİBLİ***

**Aydın Quliyev "Respublika" qəzetinin baş redaktorunun müavini İlham Pənahovun vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!**

**"Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə keçirilən 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədən irəli gələn tapşırıqların icrasının təmin edilməsi üzrə Tədbirlər Planı" təsdiq edilib. Nazirlər Kabinetindən verilən məlumata görə, bu barədə Baş nazir Əli Əsədov sərəncam imzalayıb.**

# Prezidentin müşavirə tapşırıqlarından sonra Əli Əsədov dərhal işə keçdi... Tədbirlərin səmərəlilik gücünü ekspertlər necə görür...

***Fuad İbrahimov:** "Tədbirlər Planında nəzərdə tutulan məsələlər çox önəmlidir"*



Sərəncamda qeyd edilir ki, Tədbirlər Planında nəzərdə tutulan icraçılar müvafiq tədbirlərin müəyyən olunmuş icra müddətində yerinə yetirilməsini təmin etsinlər və görülmüş işlər barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

Nazirlər Kabinetinin rəsmi saytında sözügedən Tədbirlər Planının nədən ibarət olduğu ətraflı qeyd olunub. Belə ki, burada bir sıra tədbirlərin görülməsindən söhbət gedir. Məsələn, Maliyyə Nazirliyi mart ayına qədər büdcə xərclərinə nəzarətin gücləndirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi üçün təkliflərini təqdim etməlidir. Digər tərəfdən, xarici borcun tərkibi təhlil olunaraq səviyyəsinin azaldılması, restrukturizasiyası (o cümlədən, bahalı kreditlərin nisbətən aşağı faizli kreditlərlə əvəz edilməsi) və xarici kreditlərin alınmasına zərurət yaranarsa, qabaqcıl beynəlxalq texnoloji və müasir standartlara cavab verən layihələrin həyata keçirilməsi barədə təkliflər təqdim edilməlidir. Bu iş Maliyyə Nazirliyi ilə İqtisadiyyat Nazirliyinə həvalə edilib. Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi ilin sonuna qədər bank sektorunun real sektoru dəstəkləməsi, biznes kreditlərinin verilməsi və faizlərin aşağı salınması istiqamətində müvafiq tədbirlər görməlidirlər.

Göründüyü kimi, sözügedən sənəddə çox mühüm tədbirlərin görülməsindən söhbət gedir. Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər? Sözügedən tədbirlərin görülməsini nə dərəcədə əsaslı hesab edirlər?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, Tədbirlər Planında nəzərdə tutulan məsələlər çox önəmlidir: "Ona görə də müvafiq qurumlara tapşırıldı ki, bununla bağlı təkliflərini hazırlasınlar. Bütövlükdə, ilin yekunu ilə bağlı müşavirə əvvəlkilərdən çox fərqli oldu. Əsasən iqtisadi və sosial sferaya aid olan dövlət orqanlarının iştirakı təmin edildi. Bu o deməkdir ki, artıq bu ildən görülən işlərin nə dərəcədə ciddi yerinə yetirilməsi ilə bağlı hesabatlar tələb olunacaq. Ölkə rəhbəri tərəfindən də konkret olaraq bütün bunlarla bağlı göstəriş verildi. Artıq bundan sonra istənilən layihənin, tədbirin təhlili aparılacaq. Yəni nə dərəcədə görülən işlər keyfiyyətli icra edilib. Təsadüfi deyil ki, büdcə xərclərinin necə xərclənməsi ilə bağlı konkret hesabat tələb olunur. Maliyyə Nazirliyinə büdcə xərclərinə nəzarətin gücləndirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıq verilib. Bu o deməkdir ki, bundan sonra, heç bir halda, risqli, itkilərlə üzləşəcək yarımçıq layihələr olmamalıdır.

Fors-major vəziyyətlər istisna olunmaqla, icra mexanizmində buraxılan səhvlər təkrarlanmamalıdır. Digər bir tərəfdən, həmin sənəddə bank sektorunun real sektoru dəstəkləməsi, biznes kreditlərinin verilməsi və faizlərin aşağı salınması kimi məsələ öz əksini tapıb. Hesab edirəm ki, bu da çox önəmlidir. Çünki bu sahədə ciddi problemlər var. Ona görə də hesab edirəm ki, Tədbirlər Planında nəzərdə tutulan məsələlər çox önəmlidir".

> *"Bu o deməkdir ki, artıq bu ildən görülən işlərin nə dərəcədə ciddi yerinə yetirilməsi ilə bağlı hesabatlar tələb olunacaq"*

***Vidadi ORDAHALLI***

**Xəbər verdiyimiz kimi, Rusiya Prezidenti Vladimir Putin Federal Məclisdə dövlət başçısının səlahiyyətlərinin bir hissəsinin Dumaya verilməsini təklif edib. Rusiya parlamentinin Baş nazir, bütün Baş nazir müavinləri və federal nazirlərin namizədliyini təsdiqləmək hüququ qazanacağı gözlənir.**

# Rusiyanın yeni dövlət quruluşu sistemi səmərəli olsa... Model Azərbaycanda da işləyərmi...

***Elşən Manafov:** "Model xalqın səsverməsinə çıxarılarsa, müsbət qarşılanar və modelin gələcəkdə bəhrəsini görə bilərik"*




Prezidentdən təklif olunan namizədlərin təsdiqlənməsi tələb olunacaq və onları rədd etmək hüququ olmayacaq.

Bundan əlavə, Putin qeyd edib ki, Prezidentin etimadını itirərsə və ya vəzifələrini lazımınca yerinə yetirməzsə, Baş nazir, onun müavinləri və digər vəzifəli şəxsləri vəzifəsindən kənarlaşdırmaq hüququ olmalıdır. Dövlət başçısı silahlı qüvvələrə rəhbərlik etmək hüququnu özündə saxlayacaq.

Putin, eyni zamanda, iki dəfədən çox müddətə Prezident seçilməsinin mümkünlüyü barədə müddəada "ardıcıl" sözünün çıxarılmasının müzakirə olunmasını təklif edib. Onun sözlərinə görə, bunu əsaslı bir dəyişiklik hesab etmir və buna qarşı deyil.

Bir sıra təhlilçilər hesab edirlər ki, dəyişikliklərdən sonra Rusiya prezident respublikası olaraq qalacaq, amma ölkənin idarəetmə sistemində qanunverici orqanın rolu gücləndiriləcək. Qeyd edilir ki, Rusiya parlament-prezident üsul-idarəsinə keçir.

Maraqlıdır, Rusiyanın yeni dövlət idarəçilik quruluşu səmərəli olsa, bunu Azərbaycanda da tətbiq etmək olarmı?

Politoloq Elşən Manafov qəzetimizə bildirdi ki, əslində, bu modelin müəllifi zamanında Avrasiya İttifaqı ideyasının təşəbbüskarı və müəllifi Nursultan Nazarbayev olub: "Bu modelin Rusiyada tətbiq edilməsi Rusiyadakı siyasi elitada olan münasibətlərin durumundan xəbər verir. Əslində, bu addım gözlənilməz deyildi. Güman edirəm ki, Putin Rusiya dövlətçiliyinin gücləndirilməsi və özünün hakimiyyətdə qalma müddətinin, mövqelərinin gücləndirilməsi baxımından bu addımı atdı. Putinin Nazarbayevin Qazaxıstanda tətbiq etdiyi idarəetmə modelini Rusiyaya gətirməsi baxımından bu addım maraqlı oldu. Yeni Putinin, əslində, təklif etdiyi model Dövlət Şurasına qanunverici və icra hakimiyyətlərinin müəyyən funksiyalarının verilməsini nəzərdə tutur. Belə olduğu halda, Dövlət Şurasının sədri Prezidentdən daha yuxarı bir vəzifədə dayanır.Yeni bir sıra məsələlər, Nazirlər Kabinetinin və Prezidentin qərarları Dövlət Şurasının nəzarətində olacaq, Şura sədri vacib qərarlara münasibət bildirəcək və istərsə, bu qərarlara veto qoyacaq. Eyni zamanda, Putin Dövlət Dumasının da səlahiyyətlərini genişləndirir. Bundan sonra Baş nazirin və onun müavinlərinin təsdiqi Dövlət Dumasının üzərinə qoyulur, bu da siyasi sistemin təkmilləşdirilməsi baxımından maraq doğuracaq. Dövlət Şurasına seçkilər proporsional seçki sistemində keçirilir. Bu da siyasi partiyaların ölkənin siyasi həyatında rolu baxımından maraqlı addım olacaq. Bütün hallarda, modelin tətbiqi Rusiya üçün yaxın perspektivdə ciddi dividendlər gətirəcək. Bu modeli MDB məkanında tətbiq edə biləcək dövlətlər arasında Azərbaycanın da olacağı istisna deyil. Çünki bir müddət əvvəl Azərbaycanda referendum keçirildi. Ardınca islahatlara start verildi, hətta bu fonda islahatlarla ayaqlaşa bilən parlamentin formalaşması zərurəti ortaya çıxdı və Milli Məclis buraxıldı. İdarəetmənin səmərəsini artırmaq üçün struktur islahatlar aparıldı. Güman edirəm ki, tətbiq edilən bu model xalqın səsverməsinə çıxarılarsa, müsbət qarşılanar və modelin gələcəkdə bəhrəsini görə bilərik. Artıq bunun bazası Azərbaycanda hazırdır".

***Məhəmmədəli QƏRİBLİ***



## Seçki dairəsində ilk təbliğat gününün prosesləri nə göstərdi...

**Parlament seçkilərinin növbəti və mühüm sayılan mərhələsinə start verilib. Bu ab-hava özünü ilk olaraq və kütləvi şəkildə sosial şəbəkələrdə göstərməyə başladı. Ayın 16-dan 17-nə keçən gecə, yəni saat 24-dən bir dəqiqə keçdiyi andan sosial şəbəkələri təbliğat posterləri, şüarları bürüməyə başladı. Namizədlərin çoxluğu ilk andan nəzərə çarpır.**

MSK sədri Məzahir Pənahov da dedi ki, bu seçkilərdə rekord sayda namizəd qeydə alınıb. Bu da onu deməyə əsas verir ki, seçki marafonu maraqlı və gərgin rəqabət şəraitində keçəcək. Biz də "Bakı-Xəbər" qəzeti olaraq prosesi yaxından izləyib, rəqabətin daha ciddi gedəcəyi dairələrlə bağlı təhlillərimizi aparacağıq.

Mərkəzi Seçki Komissiyasının (MSK) informasiya bazasında təqdim olunan məlumatlardan görünür ki, qeydə alınan namizədlərin sayının çox olduğu dairələrdən biri də 15 saylı Yasamal Birinci Seçki Dairəsidir. Həmin dairədəki namizədlərin təhlili göstərir ki, təbliğat-təşviqat mərhələsində sözügedən dairədə, sözün əsl mənasında, savaş gedəcək. Ölkənin radikal mövqeli iki müxalif siyasi partiyasının rəhbəri məhz həmin dairədə bir-birinə qarşı rəqibdir. Namizədlər sırasında Müsavat başqanı Arif Hacılı və Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlunun da adının olması onu deməyə əsas verir ki, seçki dairəsində müxalifətin səsləri ciddi şəkildə parçalanacaq. Məhz buna görə hətta seçki prosesi başlamadan iki partiya sədri bir-birini niyə məhz bu dairəni seçmələri ilə bağlı ittiham etməyə başladı. Ancaq son nəticədə heç biri digərinə güzəştə getmədi. Müxalifətin irəli sürdüyü namizədlərin sayı bu iki nəfərlə bitmir. Namizədliyi qeydə alınanların sırasında Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) beynəlxalq məsələlər üzrə katibi Elşən Mustafayevin də adı var. Adlarını əvvəl qeyd etdiyimiz iki şəxs bu dairədən əvvəl namizəd olmayıb, ancaq Elşən Mustafayev bundan əvvəlki seçkilərdə də 15 saylıdan gücünü sınayıb və onun həmin dairənin ərazisində anadan olduğu, hazırda yaşadığı bildirilir. Hakim Yeni Azərbaycan Partiyasının bu dairədən çox da tanınmış bir namizədlə çıxış etməməsi ilk andan belə təəssürat yarada bilərdi ki, seçki marafonu məhz müxalifət partiyasının nümayəndələri arasında aparılacaq. Xatırladaq ki, YAP-ın dairədəki namizədi Azərbaycan Tibb Universitetinin müəllimi Nağıyev Rauf Nəriman oğludur. Ancaq siyahıya ətraflı göz gəzdirdikdə, seçkiyə bitərəf kimi qatılan Quliyev Ülvi Zahid oğlunun adı diqqəti çəkir. Ülvi Quliyev məhz bu dairədən 5-ci çağırış AR Milli Məclisinin deputatı olub. Hazırda seçkinin əsas favoritlərindən biri kimi onun da adı qeyd edilir. Ancaq müşahidələr göstərir ki, Ülvi Quliyev üçün bu seçki prosesi digərlərindən çətin olacaq. Çünki tanınmış idmançı olan Ülvi Quliyev bundan əvvəl üç çağırış millət vəkili olub. Ardıcıl olaraq eyni yerdən deyil, müxtəlif dairələrdən seçilib. Yalnız bu dəfə Ülvi Quliyev 15 saylı Yasamal Birinci Seçki Dairəsindən ikinci dəfə deputat seçilmək qənaətinə gəlib. Nəzərə alaq ki, belə hal həm də seçicilər qarşısında hesabatlıq məsuliyyətini daha da artırmış olur, onda Ülvi Quliyevin yenidən mandat qazanması üçün daha aktiv təbliğat aparmaq zərurəti ortaya çıxır. Qeydə alınmışların 22 nəfərlik siyahısındakı digər şəxslərin adlarına baxdıqda, onların yuxarıda qeyd etdiyimiz tanınmış personalar qarşısında parlaq qələbə qazana biləcəyini elə də inandırıcı etmir. Məlumdur ki, seçkidə son sözü seçici deyir və hansısa sürpriz namizədin qalib gələcəyini də bu amil şərtləndirə bilər. Növbəti dairələrin analizinə qədər, görüşmək ümidilə...

***Məhəmmədəli QƏRİBLİ***




### *Həyatını insanlara xidmətə həsr etmiş İNSAN*

Bəzən gündəlik həyatımızda rastlaşdığımız insanların yanında ötəri keçirik. Onların bəzisi bizim üçün sıradan biri kimi görünür. Amma yaxından tanıdıqca həqiqətən də bizim həyatımızda belə kiçik də olsa rolu olduğunu anlayırıq. Bu gün haqqında danışacağımız Faiq Kərimov da bu qəbildəndir.

Haşiyə: Faiq Alməmməd oğlu Kərimov 17 iyul 1954-cü ildə Zəngilan şəhərində anadan olub. 1971-ci ildə orta məktəbi bitirib. Elə həmin ildə Azərbaycan Dövlət Pedeqoji İnstitutunun tarix fakültəsinə daxil olub. 1975-ci ildən etibarən orta məktəbdə gələcəyin kiçik fidanlarının yetişməsində müəllim kimi fəaliyyətə başlayıb. Hərbi xidməti başa vurduqdan sonra öz sevimli peşəsini davam etdirib.

1981-ci ildə Zəngilan Rayon Partiya Komitəsinin qərarı və Daxili İşlər Nazirinin əmri ilə Faiq müəllim rayon Daxili İşlər Şöbəsində azyaşlıların işləri üzrə müfəttiş təyin olunub. Artıq hüquq-mühafizə orqanlarında fəaliyyətini davam etdirən Faiq Kərimov 1986-cı ildən etibarən Qubadlı rayon Daxili İşlər Şöbəsində rəis müavini işləyib.

Ermənilərin Azərbaycana qarşı ərazi iddaları yeni başlayan illərdə (1988-1993) Faiq Kərimov odlu-alovlu müharibənin iştirakçısı olub. Qarabağ uğrunda döyüşlərdə qəhrəmancasına mübarizə aparan Faiq müəllimin başına ermənilərən tərəfindən pul da qoyulub. Ən qaynar nöqtələrdə əlinə silah alaraq Vətəninin müdafiəsində olan Faiq Kərimov uğurlu Horadiz əməliyyatının birbaşa iştirakçısı olub.

1993-cü ildən 2010-cu ilə qədər Qubadlı rayon polis şöbəsinin rəisi işləyib. Polis polkovniki rütbəsinə qədər yüksəlib. Bu illər ərzində minlərlə insanın hüquqlarının qorunmasında Faiq müəllimin əvəzsiz qolu olub.

2010-cu ildə təqaüdə çıxan Faiq Kərimov yenidən canından artıq sevdiyi ölkəsinə, xalqına xidmət etmək üçün müxtəlif vəzifələrdə çalışıb. 2012-ci ilə qədər Sumqayıt şəhər məhkəməsində hakim köməkçisi, daha sonra Abşeron rayonu, Qobu qəsəbəsi üzrə inzibati ərazi nümayəndəsi, 2013-2015-ci illərdə Abşeron rayonu İcra Haimiyyətinin başçısının müavini, 2015-2018-ci illərdə Sumqayıt şəhər İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsində çalışıb. 2018-ci ildən etibarən Pirallahı rayonu İcra Hakimiyyətinin Neft Daşları üzrə ərazi nümayəndəsi təyin olunub.

Xidmət etdiyi dövlərədə "Əlaçı polis əməkdaşı", Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən fəxri fərmanlar, diplomlar, "Usta məharət dərəcəsi", "Qüsursuz xidmətə görə döş nişanı", Azərbaycan Polisinin yaranmasının 90 ilinə görə medal, 2008-ci ildə Azərbaycan Republikasının Prezidneti Cənab İlham Əliyevin sərəncamı ilə "İgidliyə görə", 2014-cü ildə isə "Tərəqqi medalı" ilə təltif olunub. Kiçik dövlət müşaviridir. İki övladı var.

Bu gün Faiq Kərimov xalqına olan xidmətini davam etdirmək üçün doğulduğu və uzun illər işlədiyi 125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsindən Milli Məclisə namizədliyi irəli sürür.

Faiq Kərimov öz elinə-obasına içi boş vədlər vermir. Sadəcə bir vədi var. Bu günə qədər işlədiyi yerlərin hamısında bacardığı qədər xidmətində durduğu insanlara bundan sonra da xidmət etməyi düşünür.

Millət vəkili olaraq bu gün Zəngilan və Qubadlıdan olan məcburi köçkünlərin onsuz da dərdli olan ürəklərində məlhəm olmaqdır arzusu. Ən böyük məlhəmin Qarabağın azadlığı olduğunu özünə həyat amalı seçmiş Faiq müəllim Milli Məclisdə hər bir seçicinin vəkili olacağını, onlardan biri olaraq təmsil edəcəyini vəd edir.

Əslində insanın vədi etdiyi əməllərlə sübut olunur. Bu gün Faiq Kərimovu tanıyanılar onun hansı keyfiyyətlərə sahib olduğunu bilirlər. Çünki ən azından odlu və qanlı müharibənin içindən çıxmış biri olaraq ağrı-acını dadıb. Yüzlərlə körpənin, ana bacılarımızın namusu üçün döyüşən biri təbii ki, xalqın oğlu olaraq tanınır. Odur ki, Zəngilan-Qubadlı əhalisinin yanında ola biləcək, daim dəstəyini əsirgəmiyəcək biri kimi Faiq Kərimov ən layiqli namizəddir.

# ABŞ Azərbaycanda parlament seçkilərinə çoxlu sayda namizədin qeydə alınmasını mühüm fakt kimi dəyərləndirir

**"Azərbaycanda parlament seçkilərində çoxlu sayda namizədin qeydə alınmasını görməkdən şadıq". Secki-2020.az saytı xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberger deyib.**

O bildirib ki, ABŞ Azərbaycanda keçirilən parlament seçkilərini yaxından izləyir.

Səfir vurğulayıb ki, fərqli spektrləri təmsil



edən namizədlərin, o cümlədən çoxlu sayda müstəqil, müxalif partiyalardan olan namizədlərin, gənclərin və qadınların, həmçinin yeni simaların qeydə alınmasını görməkdən şaddırlar.

**Li Litzenberger qeyd edib ki, hazırda seçkiqabağı təşviqat kampaniyası yeni başlayır. "Biz şadıq ki, Azərbaycan seçkiləri müşahidə etmək üçün beynəlxalq müşahidəçiləri də dəvət edib. Biz beynəlxalq müşahidəçilərin müşahidələrini də izləyəcəyik və seçki prosesi ilə bağlı rəyimizi bildirəcəyik".**

# 20 Yanvar cinayətinə görə Qorbaçovun Haaqa Məhkəməsinə verilməsi aktuallaşır...

***Firdovsiyyə Əhmədova:** "Azərbaycan xalqının Mixail Qorbaçovun 30 il əvvəl Bakıda törətdiyi qanlı cinayətlərə görə Haaqa Məhkəməsinə verilməsi tələbi haqlıdır"*

**XX əsrin ən qanlı cinayətlərindən biri 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, başda SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçov olmaqla, keçmiş SSRİ rəhbərliyinin əmrilə Bakıda dinc Azərbaycan xalqına qarşı törədildi. Qorbaçovun, Yazovun, Primakovun, eləcə də Qorbaçovun Azərbaycandakı əlaltılarının əli yüzlərlə azərbaycanlının qanına batıb.**

20 Yanvar faciəsinin törədilməsinin üstündən 30 il keçməsinə baxmayaraq, hələ də canilər cinayət məsuliyyətinə cəlb edilməyiblər. 20 Yanvar qırğınını törədən şəxslərin bəziləri dünyasını dəyişib, bəziləri isə hələ də sağdır, amma onların heç biri törətdiyi cinayətə görə cavab verməyiblər.

Son zamanlar ən çox müzakirə edilən məsələlərdən biri 20 Yanvar facisəsini törədən, onlarla insanın qətlinə fərman verən keçmiş SSRİ-nin prezidenti olmuş Mixail Qorbaçovun Haaqa Məhkəməsinə verilməsi ilə bağlıdır. 20 Yanvar hadisəsinin törədilməsindən 30 il keçdikdən sonra Qorbaçovun Haaqa Məhkəməsinə verilməsi məsələsi aktuallaşıb. Qorbaçovun Haaqa Məhkəməsinə verilməsi gecikmiş olsa belə, gərəklidir.

Qeyd edək ki, rəsmi məlumatlara görə, Bakıya və başqa yaşayış məntəqələrinə sovet ordusunun hücumu vaxtı 131 nəfər, o cümlədən, 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər itkin düşmüşdür.160 evə, ictimai və şəxsi nəqliyyat vasitələrinə, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi.

Tanınmış tarixçi-alim, dosent, tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova "Bakı-Xəbər"ə bildirdi ki, Qorbaçovun və 20 Yanvar faciəsini törədərək Azərbaycan xalqına qarşı cinayət törətmiş şəxslərin beynəlxalq məhkəmələrə verilməsi, Haaqa Tribunalında ədalət məhkəməsinə çəkilməsi, törətdiyi cinayətlərə görə cavab verməsi olduqca vacibdir. Azərbaycan dövlətinin, vətəndaşının Qorbaçovu Haaqa Məhkəməsinə vermək və onun ağır şəkildə cəzalandırılmasına nail olmaq üçün kifayət qədər əsası var. "İstənilən cinayəti törədənlər cəzalandırılmalıdır. Cinayət cəzasız qalanda həmin cinayəti törədənlər başqa bir cinayətlər də törədirlər, cinayəti təkrarlamaqla insanların haqqını tapdamış olurlar. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə dinc azərbaycanlılar vətəndaşı olduqları dövlətin törətdiyi qətliama, zorakılıqlara məruz qaldılar. O dövrdə 20 Yanvar faciəsini törədənlərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün cinayət işi açılsa da, təəssüf ki, əli onlarla azərbaycanlının qanına batan keçmiş SSRİ rəhbərlərinin heç biri cəza almadı, onlar məsuliyyətdən yaxa qurtardılar. Cəzasız qalan cinayətkarların bəziləri dünyasını dəyişib, bəziləri isə sağdır. Bakıya qoşun yeridib dinc əhaliyə divan tutan siyasi və hərbi şəxslər cəzasız qaldılar. Bu məsələyə siyasi qiymət verilsə də, cinayətkarlar törətdikləri əməllərə görə cavab vermədilər. Deyim ki, hətta o vaxt ABŞ-da yaşayan bir Azərbaycan vətəndaşı 20 Yanvar faciəsinin törədilməsində əli olan keçmiş SSRİ rəhbərliyini öz adından məhkəməyə vermişdi. Həmin vətəndaş Qorbaçovun Bakıda törətdiyi qırğınlara görə beynəlxalq məhkəmələr tərəfindən ağır cəzaya məhkum edilməsini tələb etmişdi. Amma onun müraciətinə cavab verilmədi".

F.Əhmədova hesab edir ki, Qorbaçovun Haaqa Məhkəməsinə verilməsi və onun layiq olduğu cəzaya çatması üçün beynəlxalq səviyyədə təbliğat aparılmalıdır. Tarixçinin fikrincə, 20 Yanvar hadisəsi ilə bağlı məsələ artıq beynəlxalq ictimaiyyətə çıxarılmalı və bununla da hadisəni törədənlərin cəza almasına nail olunmalıdır. F.Əhmədova qeyd etdi ki. 30 il əvvəl Bakıda törədilən bu faciənin üstündən illər keçdikcə, bəzi beynəlxalq dairələr, xaricdəki təşkilatlar 20 Yanvar hadisəsini təhrif edirlər. "Çox təəssüf ki, bəzi beynəlxalq dairələr və ayrı-ayrı şəxslər keçmiş SSRİ rəhbərlərinin əli ilə, əmrilə Bakıda Azərbaycan vətəndaşlarına qarşı törədilən qətliamı, cinayəti tamam başqa istiqamətə yönəldirlər. Onlar qeyd edirlər ki, guya azərbaycanlılar bu faciəni ermənilərə və ruslara qarşı törədiblər.

**Yəni onlar 1990-cı ildə azərbaycanlıların kütləvi qırğınına tamam başqa mövqedən yanaşırlar, bunu Azərbaycan dövlətinin başqa xalqlara qarşı siyasəti kimi təqdim etməyə cəhd edirlər. Azərbaycan xalqının tarixində açılan bu qara səhifəni yazanların cinayət məsuliyyətinə cəlb edilməsi tələb olunmalıdır. Azərbaycan xalqının Mixail Qorbaçovun 30 il əvvəl Bakıda törətdiyi qanlı cinayətlərə görə Haaqa Məhkəməsinə verilməsi tələbi haqlıdır. O, törətdiyi bu cinayətə görə Azərbaycan dövlətinin maraqlarına uyğun şəkildə cəzalandırılmalıdır. Bakıda törədilən kütləvi qırğının, qətliamın üstündən 30 il, lap 40 il keçsə belə, onu törədənlər Haaqa Məhkəməsində cavab verməlidirlər" - deyə müsahibimiz qeyd etdi.**



*"O, törətdiyi bu cinayətə görə Azərbaycan dövlətinin maraqlarına uyğun şəkildə cəzalandırılmalıdır"*

***İradə SARIYEVA***

# Paşinyan Sarkisyanın konstitusiyasını yenidən ləğv edir - Nikol prezident adı daşımaq istəyir

**İnqilab nəticəsində hakimiyyətə gələn Paşinyan indi də ölkənin konstitusiyanı dəyişib, yenidən prezident idarəçiliyinə qayıtmağa çalışır. Erməni mediasının yazdığına görə, artıq Baş nazir Nikol Paşinyanın təşəbbüsü ilə konstitusiya mətnini dəyişəcək komissiya da formalaşmaq üzrədir.**



## *Hatəm Cabbarlı: "Hesab edirəm ki, Paşinyan özünə əlavə problemlərin yaranmasını istəməz"*

Dəyişiklik ölkəni 2015-ci ilə qədər olduğu kimi, prezident respublikasına çevirəcək. Paralel olaraq, ölkənin könüllü olaraq istefa verməkdən imtina edən Konstitusiya Məhkəməsinin hakimlərini dəyişmək də Paşinyan hökumətinin planlarından biridir. Bir sıra təhlilçilər hesab edirlər ki, Paşinyan bununla daxili auditoriyanın başını qatmaq istəyir. Çünki xalqa vəd verib, inqilab edəndən sonra heç bir yenilik edə bilmədi. Əksinə, vəziyyət daha da gərginləşib. Paşinyan bu gedişi ilə sübut etməyə çalışır ki, ona işləri yaxşı səviyyədə görməyə həm də səlahiyyət azlığı mane olur. Xalqın gözündən pərdə asmağa çalışır ki, guya prezident olsa, problemləri daha asan həll edə bilər. Paşinyanın bu niyyəti barədə ekspertlər nə düşünürlər?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə mövzular təsadüfən gündəmə çıxmır: "Xüsusilə də Ermənistanın indiki rəhbərliyinə yaxın media nümunələrinin bu mövzunu gündəmdə saxlaması proseslərin davamının gələcəyinə işarədir. Həmin informasiyalarda qeyd edilir ki, N.Paşinyan ölkənin konstitusiyasının dəyişməsində israrlıdır. Bunun da nəticəsində o, prezident üsul-idarəsini qaytarmaq istəyir. Hazırda isə Ermənistanda parlament üsul-idarəsidir. Bu dəyişiklik yalnız referendum yolu ilə baş tuta bilər. Hazırlıq da məhz referendumun keçirilməsinə doğru gedir.

Ancaq bunu məhz Paşinyanın tələsik edəcəyi də mənə inandırıcı gəlmir. Çünki indiki prezident 2018-ci ildə seçilib və onun səlahiyyət müddəti 2023-cü ildə bitir. Faktiki olaraq, hakimiyyətin idarə olunmasında Paşinyana mane olmayan prezidentin tezliklə dəyişməsi xəbərlərinin həm də ictimai rəyi çaşdırmaq məqsədilə ortaya atıldığı nəzərə çarpır. Baş nazir kimi o, hakimiyyət mütləqiyyətini əlində cəmləyib. Paşinyan hakimiyyətə gəlmədən əvvəl də prezident üsul-idarəçiliyini tənqid edirdi. Hələlik Ermənistanın daxilindəki bugünkü şərtlər daxilində bu addımı atmaq heç də mümkün görünmür. Çünki ölkənin üsul-idarəçiliyini dəyişmək üçün əldə ciddi arqument yoxdur. Təbii ki, mənimlə bu mövzuda opponentlik edənlər də tapılacaq.

Hesab edirəm ki, Paşinyan özünə əlavə problemlərin yaranmasını istəməz. Çünki yenilik ona ciddi səlahiyyət verməyəcək, indikindən fərqlənmək anlamında. Düşünürəm ki, belə fikri olcaqsa belə, bunu önümüzdəki illərdə edə bilər. Buna ən doğru cavabı isə zaman verəcək. Ermənistanın daxilindəki rəydə belə, köhnə idarəçiliyin qayıtmasını istəmirlər. Çünki bu, "Qarabağ klanı"nın dirilişi kimi də assosiasiya oluna bilər".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ-Çin ticarət müharibəsi kiçik sülh sazişi ilə bitdi - Azərbaycana nə dəxli...

**Məlum olduğu kimi, ABŞ və Çin arasında ticarət sazişinin 1-ci mərhələsinə dair sənəd imzalanıb. Çinlə ABŞ arasında imzalanmış iqtisadi və ticarət sazişinin birinci mərhələsindən təkcə bu iki ölkə deyil, bütün dünya faydalanacaq. Bu sözləri Çin Dövlət Şurası sədrinin (Baş nazir) müavini Liu Xı Vaşinqtonda sənədin imzalaması mərasimində deyib.**

## *"Neft məhsullarına tələbat arta bilər"*

## *Rəşad Həsənov: "Bunun Azərbaycan iqtisadiyyatına birbaşa yox, dolayı təsiri mümkündür"*

İki ilə yaxın müddətdə Birləşmiş Ştatlarla ticarət danışıqlarında Çin tərəfinə rəhbərlik edən Liu Xı deyib ki, dünyanın ən böyük iki iqtisadiyyatına malik olan ABŞ və Çin fərqlilikləri doğru qiymətləndirərək, ticarət sazişinin birinci mərhələsinin imzalanmasına nail olublar. O, sənədin hər hansı üçüncü tərəfə qarşı yönəlmədiyini və Dünya Ticarət Təşkilatının qaydalarına uyğun olduğunu deyib. Sazişin birinci mərhələsində əks olunan məsələlər barədə danışan Çin rəsmisi bazar tələbatının güclü olacağı təqdirdə ölkəsinin ABŞ-dan ildə 40 milyard dollarlıq əlavə məhsul alacağını deyib.

Bununla belə, Çin mənbələri kənd təsərrüfatı, müəllif hüquqlarının qorunması, valyuta mübadiləsi məzənnəsi, maliyyə xidmətləri, ticarət əməkdaşlığının genişləndirilməsi, texnoloji mübadilə sahələrində razılaşma əldə olunduğunu yazıblar.

Onu da qeyd edək ki, Pekinlə Vaşinqton arasında ticarət müharibəsi 2018-ci ilin baharında başlayıb. O vaxt Vaşinqton bir sıra ölkələrdən, o cümlədən, Çindən alüminium və polad idxalına rüsumların artırılması barədə qərar qəbul edib. Bundan sonra tərəflər bir neçə dəfə qarşılıqlı olaraq idxal rüsumlarını artırıblar. Dünyanın ən böyük iki iqtisadiyyatına malik dövlətlər arasında bu ticarət mübahisələri ümumi iqtisadi artıma mənfi təsir göstərib.

Bütün bu deyilənlərin fonunda maraqlıdır, ABŞ-la Çin arasında imzalanan sözügedən razılaşmanın Azərbaycana nə kimi təsirləri olacaq?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Rəşad Həsənovun sözlərinə görə, bunun Azərbaycan iqtisadiyyatına birbaşa yox, dolayı təsiri mümkündür: "Çünki dünya iqtisadiyyatının inkişafı qarşısında mühüm



maneələrdən biri ticarət savaşlarıdır. Beynəlxalq maliyyə təşkilatları bundan çox narahat idi. Birinci mərhələdə sazişin imzalanması onu göstərir ki, artıq bu istiqamətdə müsbətə doğru dinamika var. Ehtimal edilir ki, qeyd edilən problemdən qaynaqlanan qlobal iqtisadi artım tempinin zəifləməsi növbəti dövrlərdə məhdudlaşacaq.

Bu da ümumi inkişafa öz pozitiv təsirini göstərməklə dünya bazarlarında istehlak qabiliyyətini dəstəkləyəcək. Nəticədə neft məhsullarına tələbat arta bilər. Nəzərə almaq lazımdır ki, son bir neçə ayda neftlə bağlı proqnozlar çox pessimist idi. ABŞ və Çin arasında imzalanan saziş isə neft qiymətlərini daha pozitiv istiqamətdə dəyişəcək. Ən azından, qiymət büdcədə neftin nəzərdə tutulan qiymətindən yüksək olacaq. Bu da dolayısı ilə Azərbaycan iqtisadiyyatına, adambaşına düşən ÜDM-in, tədiyyə balansının artmasına müsbət təsir edəcək. Xarici ticarətdə müsbət saldo yaradacaq".

***Vidadi ORDAHALLI***

# Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinə yeni vacib elementlər daxil edir

**Azərbaycan üzərindən yükdaşımaların həcminin sürətlə artması yaxın tezlikdə ölkənin bu sahədən daha böyük həcmdə vəsait əldə etməsi ilə müşayiət olunacaq. Eyni zamanda görünən budur ki, Azərbaycanın qeyd edilən istiqamətdə əldə etdiyi uğurlar onunla yeni nəqliyyat əlaqələrinin qurulmasını istəyən dövlətlərin də sayını sürətlə artırır.**

Bu xüsusda qonşu İranın mövqeyi indi xüsusi diqqət cəlb edir.

İranın Beynəlxalq Yol və Nəqliyyat Təşkilatının baş direktoru Mənuçöhr Salmanzadə bildirir ki, ölkəsi ilə Azərbaycan arasında nəqliyyat sahəsindəki əməkdaşlıq əlaqələrinin inkişafı hər iki dövlətin maraqlarına cavab verir. O vurğulayır ki, hər iki dövlətin müvafiq strukturları arasında tranzit yüklər üçün rüsumların müəyyənləşməsi və gömrük-keçid prosedurlarının asanlaşdırılması istiqamətində razılıq əldə olunub. Bu razılaşma ticarət dövriyyəsinin artmasına, iş adamlarının qarşılıqlı investisiya yatırmasına böyük imkanlar yaradıb. Onun sözlərinə görə, nəqliyyat sahəsində əməkdaşlıq əlaqələrinin genişlənməsi Azərbaycanı Körfəz ölkələri, İranı isə Rusiya və Avropa ilə birləşdirəcək. Məhz belə bir vaxtda artıq o da məlumdur ki, İran Xəzər dənizini dəmiryolu vasitəsilə Fars körfəzinə birləşdirmək üçün ciddi addımlar atmaqdadır. İranın yol və şəhərsalma nazirinin müavini və Dəmir Yolları Şirkətinin icraçı direktoru Səid Rəsuli bildirib ki, bu dəmir yolu Fars körfəzindən başlayır və "Şimal-Cənub" dəhlizi çərçivəsində Azərbaycana birləşəcək.

Rəsulinin sözlərinə əsasən, hazırda bu dəmir yolunda hissə inşa olunmayan hissə Rəşt-Astara dəmir yoludur: "Eyni zamanda Rəşt-Ənzəli və Kaspian limanına dəmir yolu inşa ediləcək". Rəşt-Astara dəmiryolunun uzunluğunun təxminən 164 kilometr olduğunu deyən nazir müavininin sözlərinə görə, İranın Yol və Şəhərsalma Nazirliyi və Dəmir Yolları Şirkəti bu dəmiryolunun inşa edilməsini əsas prioritetlərdən biri hesab edir. Rəsuli deyib ki, dəmir yolunun inşa olunacağı ərazinin bir hissəsinin mülkiyyəti ilə bağlı işlər yekunlaşıb və layihəyə yaxın vaxtlarda başlanacaq: "Bu istiqamətdə olan terminalın bir hissəsindən istifadə edilir və bir ölkənin investisiyası ilə terminal inkişaf etdirilməkdədir". Şirkət rəsmisi vurğulayıb ki, Rəşt-Astara dəmir yolunun iki il ərzində istismara verilməsi qərara alınıb. Bütün bunlar o deməkdir ki, Azərbaycan dəmir yolu vasitəsilə Fars körfəzinə çıxış əldə edə biləcək. Təbii ki, bu şəraitdə Azərbaycan üzərindən Fars körfəzinə çıxmaq istəyən ölkələr də olacaq. Məsələn, Rusiyanı buna misal kimi göstərmək olar.




Onu da xatırladaq ki, Azərbaycan Hindistanı Orta Şərq, Qafqaz, Mərkəzi Asiya, Rusiya və Avropa ölkələri ilə birləşdirən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsinin iştirakçılarından biridir. Bu layihənin reallaşdırılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır. Azərbaycanın reallaşdırdığı layihələr Asiya və Avropa arasında enerji, nəqliyyat və ticarət əlaqələrinin daha da gücləndirilməsinə yeni təkan verir. Araşdırmalar göstərir ki, Azərbaycanın tranzit imkanlarından istifadə etməklə ən böyük ixracatçılardan biri olan Almaniya belə öz məhsullarının Çinə ixracını asanlıqla həyata keçirə bilər. Həmin marşrut bu gün yükdaşımaların ən surətli və keyfiyyətli təşkili yollarından biridir. Artıq Almaniyanın yükdaşımalar sahəsində Azərbaycanın tranzit imkanlarından istifadə ilə bağlı prosesə maraq göstərdiyi də məlumdur. Digər tərəfdən, ölkənin tranzit imkanları təkcə "Şimal-Cənub" dəhlizi ilə deyil, həm də "Şərq-Qərb" dəhlizi ilə yüklərin daşınmasına imkan verir. Buna görə Avropa Azərbaycanın tranzit imkanlarının istifadəsində maraqlıdır. Azərbaycan TRASEKA-nın proqramı çərçivəsində yüklərin surətli və sadə qeydiyyatla daşınmasını təmin edəcək rəqəmsal texnologiyalardan istifadənin təşəbbüskarı kimi də çıxış edir. Bakı-Tiflis-Qars dəmir yolunun istifadəyə verilməsi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyəti, avtomobil və dəmir yolu infrastrukturunun tikintisi və müasirləşməsi Azərbaycanı regionun tranzit qovşaqlarından birinə çevirir. "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov bu fonda artıq ölkə üzərindən daşınan yüklərin miqdarının əhəmiyyətli dərəcədə artdığını bildirir. QSC sədrinin sözlərinə görə, ümumilikdə yükdaşıma sahəsində 2018-ci illə müqayisədə 9,1 faiz artım qeydə alınıb, bu da məhz qeyri-neft məhsullarının daşınması hesabına əldə olunub. Belə ki, hesabat ili ərzində qeyri-neft yüklərin tranzit daşımalarında əvvəlki illə müqayisədə 39,2 faiz artım müşahidə edilib. Tranzit rejimdə daşınmış yüklərin ümumi artım faizi isə 24,7 faiz olub.

**Ölkəmizin beynəlxalq nəqliyyat layihələrində iştirakından danışan C.Qurbanov Bakı-Tiflis-Qars dəmir yolu xəttinin əhəmiyyətinə diqqət çəkib. O qeyd edib ki, bu istiqamətdə yük daşımalarında artım 42 faizə çatıb. Ölkəmizin tranzit nəqliyyat qovşağına çevrilməsində mühüm rol oynayan layihələrdən biri olan "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində Astara terminalı vasitəsilə daşınan yükün həcmi ötən dövrlə müqayisədə 38 faiz artıb.**

***Tahir TAĞIYEV***

# Ermənistanlı nazir Qarabağ üzrə dövlət başçılarının görüşündən açıq şəkildə qaçır...

## Elman Nəsirov: "Çünki Paşinyan hakimiyyəti Qarabağ danışıqları ilə bağlı status-kvonun dəyişməsində maraqlı deyil"

**"Ermənistanın Baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar görüşü hələlik planlaşdırılmır". Bunu Ermənistan Xarici İşlər naziri Zöhrab Mnatsakanyan deyib.**



O qeyd edib ki, bu barədə danışmaq hələ tezdir. Ermənistan və Azərbaycan XİN başçılarının növbəti görüşünün tarixi ilə bağlı suala gəldikdə isə Mnatsakanyan cavab verib ki, uyğun zaman tərəflər bu barədə məlumat verəcəklər.

Z.Mnatsakanyan onu da qeyd edib ki, son 25 ildə ATƏT-in Minsk Qrupu çərçivəsində müxtəlif yanaşmalar və ideyalar formalaşdırılıb. Mnatsakanyan bu müstəvini daha effektiv hesab etdiklərini bildirib: "Bütün bunlar bizim üçün mühüm və prinsipialdır. Danışıqlar prosesi 25 ildir ATƏT-in Minsk Qrupunun həmsədrliyi çərçivəsində davam edir və bu, ən təsirli və beynəlxalq səviyyədə tanınan formatdır".

Ən nəhayət, Mnatsakanyan həyasızcasına onu da qeyd edib ki, guya Ermənistan danışıqlar masasından yayınmağa cəhd göstərmir. Belə olsaydı, o zaman Ermənistan dövlət başçıları səviyyəsində görüş keçirilməsində maraqlı olardı. Hansı ki, Prezident İlham Əliyev hər vaxt görüşə hazır olduğunu deyir.

Maraqlıdır, Ermənistan yüksək səviyyədə görüşdən niyə yayınır? Niyə erməni rəsmiləri yüksək səviyyədə görüşün keçirilməsinə hazır olduqlarını demirlər?

Məsələyə münasibət bildirən millət vəkili, politoloq Elman Nəsirovun sözlərinə görə, bir neçə səbəbdən Ermənistan yüksək səviyyəli görüşün keçirilməsində maraqlı deyil: "Məsələ ondadır ki, Ermənistan konstruktiv danışıqlarda maraqlı deyil. Çünki belə olsa, o zaman yüksək səviyyəli danışıqlar real nəticəyə gətirib çıxara bilər. Bunda da Ermənistan maraqlı deyil. Bu səbəbdən Paşinyan ara-sıra elə qəbuledilməz açıqlamalarla çıxış edir ki, bunları heç cür qəbul etmək olmaz. Paşinyan məhz danışıqlar baş tutma-

*"Belə olsa, o zaman yüksək səviyyəli danışıqlar real nəticəyə gətirib çıxara bilər"*

sın deyə, belə açıqlamalarla çıxış edir. Gah deyir ki, separatçı qurum danışıqlarda iştirak etməlidir, gah da deyir "Qarabağ Ermənistandır və nöqtə". Hətta "Dağlıq Qarabağ xalqı" ifadəsini işlətdi. Bu günlərdə onu da dedi ki, guya Azərbaycanda ermənifobiya siyasəti günü-gündən güclənməkdədir. Bütün bu sərsəm bəyanatların məqsədi odur ki, yüksək səviyyəli danışıqlar baş tutmasın. Çünki Paşinyan hakimiyyəti Qarabağ danışıqları ilə bağlı status-kvonun dəyişməsində maraqlı deyil. Başqa bir tərəfdən, hardasa 3 aydan sonra Paşinyanın hakimiyyətə gəlməsinin 2 ili tamam olacaq. Erməni mətbuatı yazır ki, Paşinyanın reytinqi xeyli aşağı düşüb. Hətta belə fikirlər səslənir ki, guya ABŞ Paşinyanın yerinə yeni adam axtarır. Gedişat onu göstərir ki, Paşinyan hakimiyyətindən çox narahatdır. Bütün bunlar onu göstərir ki, Paşinyanın ölkə daxilində sosial bazası getdikcə daha da azalır. Belə olan halda, Paşinyan Qarabağla bağlı sərt açıqlamalar verməklə istəyir ki, reytinqini süni surətdə artırsın. Belə ritorik bəyanatlarla istəyir tərəfdarlarının sayını artırsın. Bütün bunlara baxmayaraq, Azərbaycan güclənməkdədir. Azərbaycanla Ermənistan arasında müqayisəyəgəlməz dərəcədə fərq var. Bütün parametrlər üzrə Azərbaycan Ermənistanı üstələyir".

***Vidadi ORDAHALLI***

# Faşizmə pərəstiş məsələsi Rusiya və Ermənistan arasında yeni qalmaqala rəvac verdi...

**Azərbaycanın apardığı iş sayəsində Ermənistanın faşizm sevgisinin ifşa olunması düşmən ölkənin diplomatik müstəvidə aldığı ən böyük zərbələrdən biri sayılır. Xatırladaq ki, məhz ölkəmiz tərəfindən erməni faşizminin qabarıdılması məsələsi ilə bağlı olaraq Rusiyanın Krasnodarsk diyarının Armavir şəhərində erməni faşist cəlladı Qaregin Njdenin xatirə lövhəsi sökülüb.**



Xatırladaq ki, Armavirdə erməni nasistə xatirə lövhəsinin qoyulması, faşist havadarının qəhrəmanlaşdırılması Azərbaycan və Rusiya ictimaiyyətində haqlı narazılığa səbəb olmuşdu. Nasist havadarının xatirəsinin əbədiləşdirilməsi Böyük Vətən müharibəsi zamanı alman faşistlərinə qarşı döyüşdə qanını tökmüş insanların xatirəsinin təhqir olunması kimi qəbul edilirdi. Njde müharibə zamanı həm də arxa cəbhədə strateji obyektlərdə, o cümlədən dəmir yollarında partlayışlar törətməyə qadir diversantların hazırlanması ilə məşğul idi. Njdenin əsas şüarı belə idi: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur". Üçüncü Reyxlə əməkdaşlıq etmiş şəxslərin cinayətkar və vətən xaini hesab edilməsini nəzərə alsaq, faşizmlə əməkdaşlıqda adı hallanan bir satqının xatirəsinin Armavirdə əbədiləşdirilməsi heç bir məntiqə sığmırdı və haqlı narazılığa səbəb olurdu. Beləliklə, xatirə lövhəsinin sökülməsi ilə bu məsələ öz məntiqi sonunu tapdı və ədalət bərpa edildi. Amma erməni tərəfi hələ də aldığı bu zərbəni həzm edə bilmir.

Xatırladaq ki, Njde məsələsindən sonra İrəvanda rus diplomatı, şair və dramaturq Aleksandr Qriboyedovun abidəsi təhqir olunub. Bununla ermənilər faşist cinayətkarı və başkəsəni Qaregin Njdenin qisasını böyük rus şairindən və diplomatından alıblar. Eyni zamanda, ermənilər indiki coğrafiyada, xüsusən də Dağlıq Qarabağda yaşadıqlarına görə məhz Qriboyedova və onun təmsil etdiyi Rusiya imperiyasına minnətdar olmaq əvəzinə, nankorluqlarından qalmırlar. Abidəni təhqir edən və onun üzərinə qırmızı boya tökən isə yerli millətçi-fəal Şaqen Arutyunyan olub. Bu hadisə rus tərəfini qəzəbləndirib və Şaqen Arutyunyan barəsində bundan sonra tədqiqat başlanıb. Amma görünən budur ki, erməni tərəfi məsələdə Rusiyanın mövqeyini nəzərə almır və Şaqen Arutyunyan barəsində tədqiqat da, sadəcə, gözdən pərdə asmaq üçündür. İndi isə məlum olur ki, Qriboyedovun İrəvandakı heykəlinin Şaqen Arutyunyan tərəfindən rənglənməsi ilə bağlı cinayət işinin açılması rədd edilib. Ermənistan polisinin yaydığı məlumatda bu xüsusda bildirilir: "Ekspertiza təyin edilib və bu ekspertizanın rəyi əsasında Cinayət Prosessual Məcəllənin müvafiq maddəsinə uyğun cinayət tərkibi olmadığına görə cinayət işinin başlanmasına rədd qərarı verilib". Əlavə edilib ki, törədilən əmələ görə İnzibati Məcəllənin 95-ci maddəsinə əsasən inzibati məsuliyyətə cəlb olunur. Erməni politoloq Sarkis Artsruni bildirib ki, bu halda bərabərlik prinsipinə söykənən bir siyasi qərar verilib: "Ümumiyyətlə, tarixə qarşı mübarizə, abidələrə zərbə vurmaqla törədilən təxribat siyasi mübarizənin ən təsirli vasitəsi deyil və ümumiyyətlə keçmişə və ya tarixin yenidən düşünülməsinə dair rasional bir fikir söyləməyə kömək etmir. Bu, danılmaz bir aksiomadır. Digər tərəfdən, Krasnodar diyarının Armavir şəhərində erməni kilsəsinin həyətində Qareqin Njdenin xatirə lövhəsini qara rənglə boyayan Dumanın deputatı Aleksey Vinoqradovun qəhrəmanlaşdırıldığı bir məqamda Şaqen Arutyunyanın cinayət məsuliyyətinə cəlb edilməsi qeyri-təbii olardı. Şaqen Qriboyedovun heykəlini rəngləməklə məhz ona cavab verib. Burada problem siyasi platformadadır".

Artsruninin sözlərinə görə, Moskva dövlət vəzifəsi tutan vətəndaşının fəaliyyətini qınamırsa, İrəvandakı bir siyasi fəal da sadəcə rus deputatın hərəkətinə cavab verdiyinə görə eyni əsaslarla təqib edilə bilməz:"Birincisi bu, ən azı, Ermənistan - Rusiya münasibətlərinin heç də bərabər olmadığını və fərqli bir məntiqə çevrildiyini sübut edərək, layiqli cavab prinsipinə zidd olardı. Digər tərəfdən, Rusiya imperiya olduğu postsovet müstəqil dövlətlərinin uzaq diyarları olmasına dair təhlükəli anlayışından tədricən qurtulmaq məcburiyyətindədir. Aydındır ki, Njdeni erməni hərbi-siyasi xadimləri arasında Ermənistanın suverenliyi, öz gündəliyi, başqa sözlə, anti-imperializm mövqeyinə görə hədəfə alıblar. Moskva öz ərazilərindən birinin deputatını cəzalandırmadığı belə bir vəziyyətdə, istər-istəməz, adekvat cavab verilməli olan imperiya gündəliyini təşviq edir, bu da ya İrəvan tərəfindən "həzm olunmalı", ya da layiqli cavaba məruz qalmalıdır.

Amma yerli bir epizodda Ermənistan hakimiyyəti Moskvaya adekvat cavab verdi. Nəhayət, ruslar suverenliyimizə, tariximizə, qəhrəmanlarımıza hörmət etməyi öyrənməlidirlər". Amma ekspertlər bildirir ki, İrəvanın məsələyə belə prizmadan yanaşmasına Rusiya, çətin ki, dözsün və özü də bunların İrəvanın Moskvadan uzaqlaşmaq istiqamətində baş verməsi Kremli daha da qəzəbləndirən faktorlar sayılır. Hər halda, Rusiyanın buna hansısa formada cavab verməsi qaçılmaz sayılır.

***Nahid SALAYEV***

# Azərbaycanın hərbi arsenalında yeni Rusiya, Belarus, Ukrayna, İsrail, Türkiyə, Pakistan, Çin və Fransa silah-sursatları...

**Ötən il ərzində Ermənistan hakimiyyətinin mövqeyi üzündən Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həlli istiqamətində hansısa irəliləyiş əldə olunmadı. Car il ərzində də səslənən fikirlərdən belə məlum olur ki, İrəvan məsələnin dinc müstəvidə həllinə hələ də yaxınlıq vermək istəmir.**




Təbii ki, bu hal problemin hərbi həll ehtimalını kifayət qədər yüksəldir. Bu durumda Azərbaycanın öz ordusunu daha da gücləndirməsi tamamilə təbii sayılır.

Ümumiyyətlə, cari il ərzində Azərbaycan ordusunun silahlanması ilə bağlı kifayət qədər mühüm addımlar atılması gözlənir. Yəni bu il də Azərbaycan ordusunun mütəmadi olaraq müasir və yüksək potensiala malik silah və texnikalarla təmin edilməsi proqnolaşdırılır. Bununla bağlı Rusiya, Belarus, Ukrayna, İsrail, Türkiyə, Pakistan, Çin və Fransa ilə müəyyən danışıqlar aparılır və hətta onların bəziləri yekunlaşıb. Digər tərəfdən məlumdur ki, bu gün Azərbaycan ordusu yüksək döyüş hazırlığına malikdir. Ordumuzda böyük sayda şəxsi heyətin cəlb edilməsi ilə irimiqyaslı təlimlər keçirilir. Həmin təlimlərdə qarşıya qoyulan məqsədlərə təlim iştirakçıları və təşkilatçılar tam şəkildə nail olurlar. Onu da xatırladaq ki, Azərbaycan ordusunun şəxsi heyətinin 70 faizindən çoxu müqavilə əsasında müddətdən artıq xidmət edənlərdən ibarətdir. Yəni şəxsi heyət daha çox professional hərbçilərdən ibarətdir. Belə vəziyyətdə, aydındır ki, ölkənin müdafiə qabiliyyətini təmin etmək üçün hərbi-siyasi, iqtisadi baxımdan Azərbaycanın imkanları Ermənistanın reallıqlarından xeyli yüksəkdir. Aydın məsələdir ki, Azərbaycan bu mövqeyini qorumaq üçün bundan sonra da yeni hərbi texnika alışını davam edəcək. Bununla belə, Ermənistan Azərbaycanla silah yarışında iştirak etmək üçün hər cür cəhdlər edir. Amma rus hərbi ekspert Maksim Şepovalenko bildirir ki, Ermənistanın cəhdləri əbəsdir. O bu xüsusda "media" portalına açıqlamasında bildirir ki, Azərbaycan, Ermənistandan fərqli olaraq, Rusiyadan daha çox həcmdə silah alır. 2020-ci ildə Azərbaycan və Rusiyanın hərbi-texniki əməkdaşlığının perspektivləri də kifayət qədər yüksəkdir: "Bu mövzunun qapalı olması səbəbindən 2020-ci ildə məhz hansı silah sistemlərinin Rusiya-Azərbaycan əməkdaşlığının mövzusu ola biləcəyini söyləmək çətindir. Bir şeyi çox böyük əminliklə ifadə etmək olar - ikitərəfli hərbi-texniki əməkdaşlıq gələcək üçün maliyyələşdirmə baxımından böyük ehtiyata malikdir. Prezident İlham Əliyevin ötən ilin oktyabrında Soçidə verdiyi açıqlamadan sonra Rusiya hələ Azərbaycana təxminən 2 milyard dollar dəyərində müqavilələli silah, hərbi və xüsusi texnika tədarük etməlidir. Bu fonda, Ermənistanın xüsusi əmlakının 2015 və 2017-ci illərdə təsdiq edilmiş iki kredit xətti çərçivəsində təchizatı cəmi 300 milyon ABŞ dolları təşkil edir. Hətta Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv dövlət kimi Ermənistana qiymət amilini nəzərə alsaq belə, 2 milyard və 300 milyon arasında fərq göylə yer qədərdir. Təchizat siyahısına gəldikdə, "4 ++" nəsil "Su-30SM" ağır qırıcılarının Ermənistanda görünməsini nəzərə alsaq, Azərbaycanın da eyni sinif, ən azı eyni nəsil, hətta daha yüksək nəsil Rusiya təyyarələrilə maraqlanması təəccüblü olmaz.

Keçən il ikitərəfli hərbi-texniki əməkdaşlığın daha bir vacib istiqaməti - Azərbaycanda Rusiya silahlarına, hərbi və xüsusi texnikaya sertifikatlaşdırılmış xidmət mərkəzlərinin yaradılması təyin edildi. Bu fəaliyyət hazırda helikopter və avtomobil texnologiyasını əhatə edir. Rəsmi olaraq mülki operatorlar arasındakı əməkdaşlıqdan bəhs etsək də, helikopter və avtomobil, eləcə də radar texnikalarının ikili tətbiqlərə sahib olması heç kimə sirr deyil. Bu istiqaməti mən hətta birbaşa tədarükdən daha əhəmiyyətli sayıram, çünki burada milli sənaye bazası və onun kadr komponenti formalaşır".

Ümumiyyətlə, qarşıdakı dövr ərzində də Azərbaycan özünün hərbi potensialını və silahlı qüvvələrinin döyüş qabiliyyətini daha da artırmaq istiqamətində müvafiq addımlar atmağa hazırlaşır. Onun aldığı silahlar təkcə effektli müdafiəni deyil, eyni zamanda, uğurlu hücum taktikasını özündə ehtiva edir. Ən önəmlisi odur ki, iqtisadi tənəzzül içində olan kasıb Ermənistandan fərqli olaraq, Bakı silahlanma siyasətini şaxələndirmək imkanına malikdir və bu yöndə imkanlarını ilbəil artırır. Paralel surətdə özünün hərbi-sənaye kompleksini gücləndirir. İndi ordumuzun silah arsenalında yerli istehsal olan xeyli sayda silahlar var və onların sayı artmaqda davam edir.

***Tahir TAĞIYEV***



## Azərbaycan Dilqəm Əsgərov və Şahbaz Quliyevin qanunsuz həbsi ilə bağlı BMT Baş katibinə məktub göndərdi

**Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin rəhbəri tərəfindən azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin Ermənistan tərəfindən qanunsuz həbs olunması ilə bağlı BMT-nin Baş katibinə ünvanlanan məktub BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi dərc edilib.**

Xarici İşlər Nazirliyindən baki-xeber.com-a verilən məlumata görə, sənəddə Ermənistan tərəfindən nəzarət olunan, təcavüzün, irqi ayrıseçkiliyin və etnik təmizləmənin nəticəsindən başqa bir şey olmayan qondarma rejimin qeyri-qanuniliyinin beynəlxalq səviyyədə dəfələrlə bəyan edildiyi öz əksini tapıb. Bu xüsusda, 2015-ci ilin 16 iyun tarixində qəbul edilmiş "Çıraqov və başqaları Ermənistana qarşı" adlı Avropa İnsan Haqları Məhkəməsinin Böyük Palatasının qərarına istinad edilərək qeyd edilir ki, Ermənistan Dağlıq Qarabağ regionunda və Azərbaycanın digər işğal olunmuş ərazilərində tam nəzarəti həyata keçirir.

Eyni zamanda, sənəddə beynəlxalq ictimaiyyətin Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ regionu və ətraf ərazilər də daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini davamlı şəkildə dəstəklədiyi, eləcə də Azərbaycan ərazilərinin işğalının pislənildiyi qeyd olunur, işğal olunmuş ərazilərdən bütün erməni qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasının tələb olunduğu bildirilir.

Sənəddə 11 iyul 2014-cü il tarixində azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Kəlbəcər rayonunda doğma torpaqlarını və ata-analarının məzarlarını ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülməsi və digər azərbaycanlı mülki şəxs Həsən Həsənovun qəddarcasına qətlə yetirilməsi faktı öz əksini tapıb.

Erməni tərəfinin uydurulmuş iddialar əsasında qanunsuz olaraq D.Əsgərovu "ömürlük", Ş.Quliyevi isə 22 il müddətinə azadlıqdan məhrum etdiyi sənəddə xüsusilə vurğulanır. Eyni zamanda, Həsən Həsənovun nəşinin demək olar ki 3 aydan sonra, 2014-cü ilin 2 oktyabr tarixində Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin vasitəçilyi ilə qaytarıldığı qeyd olunur.

2019-cu ilin 5-6 dekabr tarixlərində Bratislavada ATƏT-in Nazirlər Şurasının 26-cı iclasında Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovun çıxışı zamanı xüsusilə D.Əsgərov və Ş.Quliyevin məsələsinə toxunduğu, Ermənistan tərəfinin isə "hamının hamıya" prinsipi əsasında onların azad olunmasının əleyhinə olduğu sənəddə vurğulanır.

Bu xüsusda, AR-in BMT yanında daimi nümayəndəsi D.Əsgərov və Ş.Quliyevin qanunsuz həbsi ilə əlaqədar BMT Baş katibinə ünvanladığı məktubda Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin qanunsuz və səlahiyyətsiz qurumu tərəfindən sözügedən şəxslərin uydurma ittihamlar əsasında qanunsuz olaraq həbs olunduğunu, saxlandığını, süni "məhkəmə" ilə üzləşdiklərini və uzunmüddətli azadlıqdan məhrumetmə ilə məhkum olunduqlarını xüsusilə qeyd edib. Eyni zamanda, D.Əsgərov və Ş.Quliyevə qarşı irəli sürülən ittihamlar barədə onlara məlumat verilmədiyi, eləcə də bir müddət yazışma və ünsiyyət hüququndan məhrum etməklə saxlandıqları məktubda diqqətə çatdırılır.

Sənəddə qondarma "məhkəmə"dən öncə və "məhkəmə" ərzində onların Ermənistan rəsmiləri tərəfindən səsləndirilmiş bəyanatlarda "təxribatçılar", "qatillər" və "muzdlu cinayətkarlar" kimi qələmə verildiyi diqqətə çatdırılır, eləcə də sözügedən şəxslərə qarşı irəli sürülən ittihamların onların başa düşdükləri dildə izah olunmadığı, tərcüməçi vasitəsilə onlara adekvat köməkliyin göstərilmədiyi və "məhkəmə"nin onların başa düşmədiyi erməni dilində aparıldığı bildirilir.

Hazırda D.Əsgərov və Ş.Quliyevin həbsxanada tam izolyasiyada saxlandığı və Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən səfərlər istisna olmaqla, heç bir əlaqələrinin olmadığı sənəddə xüsusilə vurğulanır. Burada, həmçinin, D.Əsgərov və Ş.Quliyevin etnik mənşəyinə və milli mənsubiyyətinə görə diskriminasiyaya məruz qaldığı qeyd olunur və onların həbslərinin heç bir hüquqi əsasının və ya legitimliyinin olmadığı, eləcə də sözügedən şəxslərin hüquqlarının pozulmasının Avropa İnsan Hüquqları Məhkəməsində şikayət mövzusu olduğu bildirilir.

Sonda sənəddə Azərbaycan Respublikasının BMT, eləcə də onun müvafiq insan hüquqları mexanizmləri və prosedurlarının D.Əsgərov və Ş.Quliyevin taleyinə biganə qalmayacağını, eləcə də onların dərhal və qeyd-şərtsiz azad olunması və ailələri ilə bir araya gəlmələrinin təmin edilməsi istiqamətində səy göstərəcəklərini gözlədiyi xüsusilə qeyd olunur.

# Xarici borclar dünya dövlətlərini batırır, Azərbaycanın isə xilasedici özəllikləri var...

**Bu gün dünya iqtisadiyyatının üzləşdiyi ən böyük problemlərdən biri də borc məsələsidir. Hesablamalar göstərir ki, 2019-cu ildə dünyanın ümumi borcu 253 trilyon dollar təşkil edib. Beynəlxalq Maliyyə İnstitutunun hesabatına görə, dünyanın borcunun artmasına səbəb dövlətlərin və korporasiyaların aşağı faiz göstəricilərinə görə əldə etdikləri borcların miqdarının artmasıdır.**

2020-ci ilin ilk rübündə dünyanın ümumi borcunun 257 trilyon dollara yüksələcəyi qeyd edilib. Ekspertlər bildirir ki, borcların belə sürətlə artması dünya iqtisadiyyatı üçün ciddi təhdid mənbəyidir və hər an yeni bir böhranın da başlanğıcı ola bilər.

Yaranmış vəziyyətdə bir sıra ölkələr xarici borc məsələsində daha ehtiyatlı mövqe tutmağa çalışır. Bəzi ölkələrin az miqdarda borcunun olması isə onlar üçün hansısa ciddi təhdidin yaranmasının qarşısın bəri başdan alır. Onlardan biri də Azərbaycandır. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan xarici borc səviyyəsinə görə ən yaxşılar sırasındadır və borcun miqdarının da gedərək azaldılması nəzərdə tutulur. Həmçinin bahalı borcların daha az faizli borclarla əvəzlənməsi də gündəmdədir. Bu məsələyə Prezident İlham Əliyevin sədrliyi ilə 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə də xüsusi toxunulub. Dövlət başçısı özü isə borc barədə qeyd edib: "Bizim maliyyə imkanımız var ki, tez bir zamanda xarici borcumuzu daha da endirək. Çünki təkcə keçən il biz 6,4 milyard dollar əlavə vəsait qazanmışıq. Bu il də neftin qiyməti təqribən 65 dollar səviyyəsindədir. Bizim büdcəmizdə isə neftin qiyməti 55 dollar götürülmüşdür. Biz neftin qiymətini çox konservativ, yəni aşağı səviyyədə nəzərdə tutduq. Buna baxmayaraq, büdcəmiz rekord həddə çatıb. Ona görə əminəm ki, bu il bizə böyük əlavə xarici valyuta axını olacaq. Ona görə nisbətən yüksək faizlə götürülmüş borcları həm aşağı faizlə götürüləcək borclarla əvəzləmək olar, eyni zamanda kreditorlarla danışıqlar aparıla bilər ki, biz bu borcları vaxtından əvvəl qaytaraq. Çünki hesab edirəm ki, xarici dövlət borcu nə qədər aşağı olsa, o qədər yaxşıdır. Bir də ki, biz indi xarici kreditləri də çox böyük ehtiyatla alırıq. Ancaq texnoloji layihələrin həyata keçirilməsi üçün kreditlər alına bilər. Yoxsa əvvəlki illərdə hansısa tikintilərə, yol tikintisinə və bəzi tikintilərə kreditlər götürülürdü. Bunun heç bir əsası yoxdur. Çünki görülən bu işlər dollar tutumlu işlər deyil. Ona görə hökumətə kreditlərlə bağlı bir daha tapşırıq verirəm ki, çox ehtiyatla davransınlar. Bizim, əslində xarici kreditlərə ehtiyacımız yoxdur. Biz indi özümüz kreditoruq. Beynəlxalq İnkişaf Agentliyinin hesabatında da Azərbaycan donor ölkə kimi tanınır".



Son məlumatlara görə, artıq Azərbaycan xarici borc məsələsində növbəti mühüm addımı atmağa hazırlaşır. Belə ki, 2020-ci ilin aprel ayınadək Azərbaycanın xarici borcunun tərkibi təhlil olunaraq səviyyəsinin azaldılması, restrukturizasiyası (o cümlədən, bahalı kreditlərin nisbətən aşağı faizli kreditlərlə əvəz edilməsi) və xarici kreditlərin alınmasına zərurət yaranarsa, qabaqcıl beynəlxalq texnoloji və müasir standartlara cavab verən layihələrin həyata keçirilməsi barədə təkliflər hazırlanacaq. Artıq bu barədə baş nazir Əli Əsədovun sərəncamı ilə təsdiqlənən "2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədən irəli gələn tapşırıqların icrasının təmin edilməsi üzrə Tədbirlər Planı"nda müvafiq tələblər də yer alıb. Tədbirlər Planına əsasən, bu təkliflərin hazırlanması Maliyyə və İqtisadiyyat nazirliklərinə tapşırılıb. Qeyd edək ki, hazırda Azərbaycanın birbaşa götürülən xarici dövlət borcu ÜDM-in 17,2 faiz səviyyəsindədir. Bu il dövlət büdcəsində xarici borcun azaldılması üçün 1,7 milyard manat nəzərdə tutulub. İlin sonuna kimi xarci borcun miqdarının daha 1 faiz azalması gözlənir.

Beynəlxalq Valyuta Fondu bildirir ki, hazırda ən çox borcu olan dövlət ABŞ-dır. Bu ölkə 23 trilyon dollar borcla öndə gedir. Növbəti yerlərdə 11,8 trilyon dollar borcla Yaponiya və 6,8 trilyon dollar borcla Çin qərarlaşıb. Avropa ölkələrində də borcun səviyyəsi yüksədir. Hazırda qlobal borcun dünya üzrə ümumi daxili məhsulun dəyərinə nisbəti 82% təşkil edir ki, bu da bəşər tarixində rekord göstəricidir. Bu durumda hesab edilir ki, ayrı-ayrı dövlətlərin xarici borclarının artması onları iqtisadi cəhətdən daha asılı edir. Məsələn, işğalçı Ermənistanın timsalında xarci borc artımının necə iqtisadi asılılığa gətirib çıxardığını aydın görmək olar.

**Ermənistanın ümumi dövlət borcu 7 milyard dollara çatır. Özü də Ermənistan daha əvvəlki kimi güzəştli şərtlərlə borc götürə bilmir. İndi Ermənistana borc verən qurumlar ona faiz, müddət və digər belə məqamlarda öz şərtlərini diqtə edir və ölkəni özlərindən daha asılı hala salır. Belə vəziyyətdə Ermənistanın xaricdən maliyyə asılılığı da güclənir. İndi qarşıdakı dövr ərzində bu ölkə daha çox xarici maliyyə qurumlarının diqtəsi ilə hərəkət etməli olacaq. Amma Azərbaycanın artan maliyyə imkanları ölkə üçün tamam fərqli vəziyyət yaradır. Belə görünür ki, qarşıdakı dövr ərzində borc məsələsində Azərbaycan daha əlverişli bir mövqedə olacaq.**

***Ramil QULİYEV***




# Ağla qərənfil, ağla

Qurdun azğın dişləri,
Alt-üst etdi işləri,
Dara çəkilmişləri,
Ağla qərənfil, ağla.

Çilikləndi eynəyim,
Yetər artıq göynəyim,
Başdaşları köynəyim
Ağla qərənfil, ağla.

Bu ağrı içimdədi,
Hamı bir biçimdədi.
Vətən yas içindədi
Ağla qərənfil, ağla.

Qan etdilər səhəri,
İçirdilər zəhəri.
Bas bağrına şəhəri
Ağla qərənfil, ağla.

Zirvələr sar saxladı,
Dünya da sarsaqladı.
Yaramız qaysaqladı
Ağla qərənfil, ağla.

Tank gəlir özgə səsdə,
Quş neynəsin qəfəsdə
İzdiham dəstə-dəstə
Ağla qərənfil, ağla.

Gəl nə sındır, nə xışla.
Məzarları naxışla
Hamını bir baxışla
Ağla qərənfil, ağla.

Şeytan öz qabındadı,
Hiylə niqabındadı
Getdi bu qabın dadı
Ağla qərənfil, ağla.

Zülmətdə xan gecəni
Gözləri qan gecəni.
Bu qudurğan gecəni
Ağla qərənfil, ağla.

Cücərt məni, ək məni,
Oyatmaz tütək məni
Diri-diri tək məni
Ağla qərənfil, ağla.

Heç nə yoxdu havayı,
Ucuz sanma bu vayı.
Unutma haqqı-sayı
Ağla qərənfil, ağla.

Qabil hikkələnibdi,
Ruhu güllələnibi.
Qana qan bələnibdi
Ağla qərənfil, ağla.

Zirvədə səkmək olmur,
Yenidən əkmək olmur
Bu dərdi çəkmək olmur
Ağla qərənfil, ağla.

Biz verdik ixtiyarı,
Qəm bürüdü diyarı
Ağlatma Bəxtiyarı
Ağla qərənfil, ağla.

Dərdimiz təməllidi,
Bu ki, bizə bəllidi
Ağlamaq təsəllidi
Ağla qərənfil, ağla.

Məmməd Araz bilincə,
Danış incə, din incə
Xəlil Rza gəlincə
Ağla qərənfil, ağla.

Aralılar pətəklədi,
Dərdimiz çiçəklədi
Ölüm bizi təklədi
Ağla qərənfil, ağla.

İsmayıl Şıxlı gəlib,
Qəlbi işıqlı gəlib.
Toylu, aşıqlı gəlib
Ağla qərənfil, ağla.

Nə qədər gördük kötək
Nə əl qaldı, nə ətək.
Dərdimiz pətək-pətək
Ağla qərənfil, ağla.

Burda sözü fel desin,
Araz desin, Nil desin.
Anar özü dil desin
Ağla qərənfil, ağla.

Hər birisi əriydi,
Düşündürən sər idi.
Xalqın öncülləriydi
Ağla qərənfil, ağla.

Haqqı xocamız desin,
Dağdan ucamız desin.
Fikrət Qocamız desin
Ağla qərənfil, ağla.

Qoy məhv olsun yağı de,
Çəkdi bizə dağı de.
Bayatı de, ağı de
Ağla qərənfil, ağla.

Məlumdu azarları,
Pis deyil bazarları.
Birinci yazarları
Ağla qərənfil, ağla.

Su dəhnədən soğulur
Kİmsə sussuz boğulur.
Günəş hər gün doğulur
Ağla qərənfil, ağla.

Davud nəfəsindəsən,
Zilində, pəsindəsən.
Alimin səsindəsən
Ağla qərənfil, ağla.

Acı külək hey əsir,
Can almağa tələsir.
Ruhumuz qaldı əsir
Ağla qərənfil, ağla.

Bulud kimi dolan var
Rəngi-ruhu solan var.
Bu qırğında olan var
Ağla qərənfil, ağla.

Güllələr səpələndi
Qan köynəyə bələndi.
Varlığım silkələndi
Ağla qərənfil, ağla.

Boşa çıxdı dərkimiz,
Yondu bizi kərkimiz.
Sənə gəlir ərkimiz
Ağla qərənfil, ağla.

Zəmidə sünbülüm yox,
Həşəm oldu gülüm yox.
Bu zülüm tək zülüm yox
Ağla qərənfil, ağla.

Rəbbim saldı azarı
Bizdən düşdü güzarı.
Yoxdu behi bazarı
Ağla qərənfil, ağla.

Can verir dərdə cərim,
Bir də çətin becərim.
Yas tutub Kəlbəcərim
Ağla qərənfil, ağla.

Getmə zülmün bəhsinə,
Qulaq vermə səsinə
Hər kəsi qibləsinə
Ağla qərənfil, ağla.

Qan köynəyə bələndi,
Dərdimiz zirvələndi.
Qəbirlər cərgələndi
Ağla qərənfil, ağla.

Doğranan meşəmizdi
Dərdimiz nəşəmizdir.
Ağlamaq peşəmizdir
Ağla qərənfil, ağla.

Bu bizlərə şərdimi,
Yazılmış əsərdimi?
Bir evdə üm mərdimi
Ağla qərənfil, ağla.

Gedən varsa əyləmə
Dərdi yada söyləmə.
Çox da kürlük eyləmə
Ağla qərənfil, ağla.

Bu səngimiş şamları,
Qaralmış axşamları
Gül qoxan əndamları
Ağla qərənfil, ağla.

Məlhəm ol əlacıma,
Sən də bir yan acıma.
Şəhid gedən bacıma
Ağla qərənfil, ağla.

Mən nə deyim bu bürcə,
Özün de bircə-bircə.
Yaşamadıq ömürcə
Ağla qərənfil, ağla.

Kişi doğulmuşları,
Əbədi susmuşları.
Şəhid qaranquşları
Ağla qərənfil, ağla.

Bu düşməni tanı sən
Əldən vermə anı sən.
Can verməyən canı sən
Ağla qərənfil, ağla.

Tər çiçəklər tər getdi
Ev dağıldı dər getdi.
Gəlin qaldı, ər getdi
Ağla qərənfil, ağla.

Səp yaramın duzunu,
Ərit qəlbin buzunu.
Qurd apardı quzunu
Ağla qərənfil, ağla.

Bu zərif çiçəkləri,
Var olan gerçəkləri.
Gözəli göyçəkləri
Ağla qərənfil, ağla.

Pozdular tam işləri,
Sındırdılar dişləri
Ağ kəfən geymişləri
Ağla qərənfil, ağla.

Kaş dərs olsun bu bizə,
Göz yummayaq gündüzə.
Qan artıq çıxıb dizə
Ağla qərənfil, ağla.

Kim yaralı, kim xəstə.
Şəhidlər dəstə-dəstə
Ölənləri ahəstə
Ağla qərənfil, ağla.

Bu qədər talanları.
Şər adlı yalanları
Dərdi lap kalanları
Ağla qərənfil, ağla.

Dözənmirik zillətə,
Hıçqırığa, illətə
Sən də qoşul millətə
Ağla qərənfil, ağla.

Tükəndi getdi dözüm,
Söndü ocağım közüm
Bir şəhid də mən özüm.
Ağla qərənfil, ağla.

*23 yanvar 1990-cı il*
*Eldar Həsənli*

---

**Azərbaycanda uzunmüddətli qeyri-neft ixracı strategiyası hazırlanacaq. Bu barədə Baş nazir Əli Əsədovun sərəncamı ilə təsdiqlənən "2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədən irəli gələn tapşırıqların icrasının təmin edilməsi üzrə Tədbirlər Planı"nda qeyd edilib.**

# Qeyri-neft ixrac strategiyası nəyi dəyişə biləcək...

***Pərviz Heydərov:*** *"Qeyri-neft sektorunun inkişaf etdirilməsi və bu sahədə ixracın genişləndirilməsi hökumətin əsas vəzifəsidir"*



Tədbirlər Planına əsasən, İqtisadiyyat Nazirliyinə 2020-ci ilin iyul ayınadək uzunmüddətli qeyri-neft ixracı strategiyasının hazırlanması tapşırılıb.

Maraqlıdır, uzunmüddətli qeyri-neft ixracı strategiyası hansı formada və necə hazırlanacaq? Ümumiyyətlə, tədbirlər planına nələr daxil olacaq?

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qeyri-neft sektorunun inkişaf etdirilməsi və bu sahədə ixracın genişləndirilməsi hökumətin əsas vəzifəsidir. Çünki bu, artıq bir müddətdir dövlətin həyata keçirdiyi iqtisadi kursun və siyasətin qayəsini təşkil edir: "Keçən il qeyri-neft ixracımız 14 faiz artıb. Bu, həqiqətən də çox yaxşı nəticədir. Prezident İlham Əliyev demişkən, bu artımı son illər ərzində özəl sektorun fəaliyyətinə göstərilən diqqət, güzəştli kreditlərin verilməsi, subsidiyalarla bağlı aparılan islahatlar və digər tədbirlər şərtləndirib. Qeyri-neft sektoruna aid məhsullarımız əsasən Rusiyaya ixrac olunur. Ümumiyyətlə, Rusiya bu sahədə ölkəmiz üçün əsas bazardır. Lakin keçən il digər qonşu ölkələrə də qeyri-neft məhsulları ixracında artım baş verib. Məsələn, Türkiyə ilə bizim ticarət dövriyyəmiz keçən il 4 milyard dollara çatıb. İranla 30 faiz artıb. Gürcüstanla da ticarət dövriyyəsi artıb. Bütün bunlarda məhz qeyri-neft sektoruna aid məhsullar mühüm rol oynayıb. Lakin Prezident çıxışında vurğuladı ki, bir çox ölkədə bizim ikitərəfli hökumətlərarası komissiyalarımız fəaliyyət göstərir və bir neçə ölkədə Azərbaycan ticarət evləri yaradılıb.

*"...güzəştli kreditlərin verilməsi, subsidiyalarla bağlı aparılan islahatlar qeyri-neft sektorunun inkişaf etdirilməsinə səbəb olub"*

Hökumətlərarası komissiyaların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan məhsullarını o ölkələrə ixrac etmək məqsədilə yerli şirkətlərin xarici ölkələrdə fəaliyyəti, tenderlərdə iştirakı üçün yeni imkanlar araşdırsın, eyni zamanda, bir çox ölkədə bu istiqamətdə kontraktlar da icra etməyimizə kömək etsin. Keçən il İqtisadiyyat Nazirliyi bu sahədə çox iş görüb. Rusiya, Çin və digər ölkələr istiqamətində. Bu il sözügedən fəaliyyət davam etdiriləcək".

**Günel CƏLİLOVA**

# Məktəblərimizdə saxta diplomlu müəllimlər, hətta direktorlar da var

**İstənilən sahədə saxta diplomlu şəxslərin fəaliyyət göstərməsi həmin sahənin inkişafına deyil, tənəzzülə doğru getməsinə rəvac verir. Çox təəssüf ki, saxta diplomlu şəxslər respublikanın orta təhsil sisteminə də sirayət edə biliblər. Onlar arasında nəinki sıravi müəllimlər, hətta məktəb direktorları, dərs hissə müdirləri də var.**

## *Kamran Əsədov: "Bu ali təhsil müəssisəsinin adı ilə alınıb təhsil sistemində işlədilən diplomlar..."*

Hələ 2014-cü ildə Təhsil Nazirliyindən bildirilirdi ki, nazirlik 2 minə qədər saxta diplomlu müəllimi adbaad tanıyır. Qurum qeyd edirdi ki, nazirlikdə 2 minə qədər saxta diplomlu müəllimin işləməsi barədə dəqiq məlumat var, amma onları bir anın içində işdən uzaqlaşdırmaq mümkünsüzdür.

Son zamanlar yenidən təhsil sənədi nümunəvi olmayan (saxta diplom), mövcud qaydaların tələblərinə uyğun olmayaraq işə qəbul edilmiş şəxslərlə bağlı məsələ gündəmdədir. Xüsusilə də orta təhsil sistemində olanlara münasibət diqqəti cəlb edir.

Bu günlərdə saytlarda və sosial şəbəkələrdə Təhsil Nazirliyinin saxta diplomlarla işləyən müəllimlərə, məktəb direktorlarına qarşı barışmaz mövqe sərgilədiyi qeyd edilib.

Sosial şəbəkələrdə Yevlax şəhəri 1 nömrəli tam orta məktəbin direktoru Xalidə Əzizovanın diplomunun saxta olması ilə bağlı məlumat yayılıb. Bildirilir ki, Xalidə Əzizovanın Kirovabad (Gəncə) Pedaqoji İnstitutu tərəfindən verilən diplomu saxta çıxıb.

Məsələ barədə Təhsil Nazirliyindən mətbuata bildirilib ki, Təhsil naziri Ceyhun Bayramovun müvafiq əmrilə Yevlax şəhəri 1 nömrəli tam orta məktəbin direktoru Xalidə Əzizova ilə əmək müqaviləsinə 15 yanvar 2020-ci il tarixdə xitam verilib.

Tanınmış təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, Müəllimlər İnstitutunun Gəncə filialı tələbələrə saxta diplomlar təşkil edir: "İlk növbədə qeyd edim ki, ən çox saxta diplom Müəllimlər İnstitutunun Gəncə filialında tələbələrə təşkil edilir. Bu ali təhsil müəssisəsinin adı ilə alınıb təhsil sistemində işlədilən diplomları 600-dən çoxdur. Ədalət naminə demək lazımdır ki, saxta diplom məsələsi ilə bağlı müəyyən irəliləyişlər var. 5-10 il bundan qabaqkı faktlarla müqayisədə müəyyən sabitləşmə hiss olunur. Bunun səbəbləri müxtəlif şəkildə izah oluna bilər. Xatırlayırsınızsa, 2012-ci ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (DİM) sədri Məleykə Abbaszadə məsələ ilə bağlı ciddi rəqəmlər açıqlamışdı. O, 1992-2011-ci illər ərzində 22 min 332 nəfərin TQDK-nın (DİM) "qara baza"sına düşdüyünü və həmin şəxslərin saxta diplomlarla fəaliyyət göstərdiyini bildirmişdi.

Saxta diplomların əsasən köçürmələrlə bağlı olduğunu da qeyd etmək lazımdır. Azərbaycanda keçirilən qəbul imtahanında keçid balını toplaya bilməyən gənclər xarici ölkələrin, xüsusən də Rusiya, Ukrayna, Gürcüstan və Türkiyə universitetlərinə saxta yolla qəbul edilir, sonra isə Azərbaycanın dövlət universitetlərinə və ya rayon filiallarında birbaşa 2-ci kursa qəbul olunurdular.

Xatırladım ki, Azərbaycan Beynəlxalq Universitetinin tədrisinin təşkilindəki problemlər, qanunsuz tələbə köçürmələri və digər nöqsanlara görə bağlanandan sonra həmin ali məktəbin diplomları qəbul olunmadı, məhkəmə prosesi hələ də bu günə kimi davam edir. Misir Mərdanovun nazir olduğu dövrdə bir neçə müəllim işdən azad olundu. Amma məhkəmə bunları yenidən bərpa etdi. Saxta diplom məsələsinin başlıca səbəbi cəzasızlıqdan qaynaqlanır. Hər hansı universitet rektorunun və ya nazirlikdən kiminsə mövcud səbəbə görə cəza aldığı ilə bağlı konkret rəsmi məlumat verilməyib. Məhz cəzasızlıq sindromuna görə bu kimi hallar baş verir".

O qeyd etdi ki, Sovet dövründə Pedaqoji Kadrların İxtisasartırma və Yenidən Hazırlama İnstitutu var idi, sonradan bu institutun xarakteri dəyişilərək Azərbaycan Müəllimlər İnstitutu statusu aldı. Bu azmiş kimi, həmin institutun bölgələrdə 11 filialı yaradıldı, o cümlədən də Gəncədə. Bir müddətdən sonra burada böyük korrupsiya faktları aşkarlandı, bir neçə filial bağlandı və belə bir mənzərə ortaya çıxdı. 2015-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulması barədə sərəncam imzaladı və belə deyək ki, diplom istehsal edən ən böyük müəssisə fəaliyyətini dayandırdı. "Təhsil Nazirliyində Nostrifikasiya şöbəsində diplomların tanınması rəsmi qeydiyyata alınır, nazirlik hansısa bir xarici ölkədən gələn diplom üçün həmin universitetə sorğu göndərir, dəqiqləşdirmə aparılır. İnstitutun lisenziyası yoxdursa və ya nostrifikasiyadan keçməyibsə, saxta hesab olunur. Saxta anlayış da var ki, möhür saxtadır və ya imza saxtadır. Bununla əlaqədar müəyyən qurumlar fəaliyyət göstərir və bu iş daim nəzarətdədir. Amma bir məqam da var ki, bəzi hallarda Təhsil Nazirliyində Nostrifikasiya şöbəsinin təsdiqi ilə də saxta diplomlardan əmək bazarında istifadə olunur.



*"Belə bir "xroniki xəstəliyi" birdən-birə aradan qaldırmaq mümkünsüz dərəcədə çətin bir şeydir"*

Ölkəmiz müstəqillik əldə etdikdən sonra ölkənin sosial-iqtisadi sahəsində olduğu kimi, təhsil sahəsində də müəyyən boşluqlar əmələ gəldi. Təhsil qanununun qəbul olunması 15 ilə qədər ləngidi. Digər normativ-hüquqi baza yaradılması istiqamətində lazımi iş aparılmadı. Fürsətdən istifadə olunub, 70-dən artıq ali və orta təhsil müəssisəsi yaradıldı və bu müəssisələrin əksəriyyəti özəl oldu. Onların hər hansı bir bazası formalaşmadı. Ona görə də qanunvericilikdə olan müəyyən boşluqlar bu təhsil müəssisələrində saxtakarlıq elementlərinin baş verməsinə zəmin yaratdı. Özəl ali məktəblərdə islahatlara start verildi. Bir neçə universitet - Azərbaycan Beynəlxalq Universiteti, Təfəkkür Universiteti, Moskva Açıq Universiteti bağlandı. Bu sahədə rasionallaşma, optimallaşma baxımından tədbirlər həyata keçirilir. Bir sıra universitetlər bağlanır, digərləri birləşir, kolleclər universitetlərin nəzdinə verilir. Bu hərəkətlilik və dəyişikliklər müəyyən vaxtlarda boşluqlar yaradır və bundan istifadə edənlər saxta diplomlar hazırlayıb kimlərəsə verirlər. Belə bir "xroniki xəstəliyi" birdən-birə aradan qaldırmaq mümkünsüz dərəcədə çətin bir şeydir. Əvvəllər mətbuat, internet belə geniş səs-küy salmırdı. Burada mətbuatın rolu böyükdür. Korrupsiya, saxtakarlıq halları mətbuat tərəfindən qabardıldı, bu məsələ yüksək səviyyələrə qədər qaldırıldı. Mətbuatın rolu, ictimaiyyətin təpkisi olmasaydı, bu proses hələ də çiçəklənməkdə davam edəcəkdi.

Bundan başqa, hesab edirəm ki, elektron baza olmalıdır. Hər bir işəgötürən işçini qəbul etdikdən sonra rahatlıqla həmin portala daxil olub verilmiş diplomin həqiqi, yoxsa saxta olduğunu yoxlamalıdır" - deyə ekspert qeyd etdi.

***İradə SARIYEVA***

# Dövlət Komitəsinin təqdim etdiyi "Liderliyin inkişafı proqramı"nda kimlər iştirak edə bilər...

**2019-cu ilin sonlarından həyata keçirilməyə başlayan Diasporla İş üzrə Dövlət Komitəsinin "Liderliyin inkişafı proqramı" çərçivəsində Azərbaycanın təbliği əsas hədəf olaraq seçilib və proqrama cəlb edilən iştirakçılar ölkəmizlə bağlı təbliğat işlərinin həyata keçirilməsində maraqlı olan şəxslərdir.**

Ötən ilin sonlarında Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov diaspor nümayəndələri ilə görüşüb və proqramın mahiyyəti, hədəfləri barədə geniş müzakirələr aparmışdı.

Bundan əlavə, komitə sədri F.Muradov "Liderliyin inkişafı proqramı" ilə bağlı "Real" TV-yə müsahibəsində bildirmişdi ki, komitə proqram iştirakçılarının cəsarətlə Azərbaycanı təbliğ etmələrini istəyir. O, layihənin məqsəd və məramını izah edərkən vurğulayıb ki, "Liderliyin inkişafı proqramı"nda iştirak edən şəxslər əksər qurumlarla görüşlər keçiriblər və bu görüşlər nəticəsində onlar Azərbaycanla bağlı ideoloji, siyasi, innovativ baxımdan maraqlı məlumatlar əldə ediblər və bu məlumatlar əsasında da onların ölkəmizi cəsarətlə təbliğ etməsi əsas məqsəddir.

Komitənin mətbuat xidmətinin rəhbəri Vəsilə Vahidqızı "Bakı-Xəbər"ə bildirdi ki, Diasporla İş üzrə Dövlət Komitəsində müxtəlif ölkələrdən Azərbaycana gəlmiş diaspor nümayəndələri Dövlət Komitəsi tərəfindən həyata keçirilən "Liderliyin inkişafı proqramı"nın iştirakçıları olaraq proqramın əhəmiyyətini qeyd ediblər. Dövlət Komitəsi tərəfindən həyata keçirilən "Liderliyin inkişafı proqramı"nın iştirakçıları - Fransada və beynəlxalq miqyasda hüquq və vergi məsələləri üzrə xidmətlər təklif edən "LEXLOR" beynəlxalq hüquq şirkətinin rəhbəri və təsisçi partnyoru Edmond Verdier, Türkiyədə fəaliyyət göstərən "Edison" hüquq bürosunun sədri Ruslan Edison, Almaniyada miqrasiya və qaçqın məsələləri üzrə ictimai fəaliyyətlə məşğul olan Nurlan Məmmədov, Ukraynadakı "Riç-İnter Qrup" Açıq Səhmdar Cəmiyyətinin baş direktoru Murad Cəfərov, Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin İdarə Heyətinin sədri Murad Muradov təmsil olunublar.

Komitə sədri Fuad Muradov ölkəmizin uğurlu diaspor siyasəti barədə məlumat verib, diaspor nümayəndələri ilə dövlət qurumları arasında əlaqələrin qurulması və əməkdaşlığın əhəmiyyətindən danışıb.

Liderlik proqramı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, icma işinin təşkili, xaricdəki potensialın müəyyən olunması, icma lideri olmağın əhəmiyyəti, gənc liderlərin daha da fəallaşdırılması və s. kimi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Diaspor nümayəndələri öz fəaliyyətləri barədə məlumat verib, "Liderliyin İnkişafı Proqramı"nı və ümumiyyətlə, komitənin fəaliyyət prinsiplərini müəyyən edən Strateji Yol Xəritəsini yüksək qiymətləndirdiklərini qeyd ediblər.

Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin İdarə Heyətinin sədri Murad Muradov




"Liderliyin İkişafı Proqramı" haqqında bunları deyib: "Liderliyin İkişafı Proqramı"nın ən müsbət tərəfi və bizə qazandırdığı şey Azərbaycan Respublikasının dövlət qurumları ilə bizim tanışlığımız, onlarla birbaşa əlaqələrin qurulması perspektivi, öz təklif və fikirlərimizi birbaşa nazirlərə, rəhbər şəxslərə ünvanlama imkanları idi. Bununla yanaşı, Azərbaycanda həyata keçirilən islahatları öz gözlərimizlə görmək idi. Gənc, savadlı, novator, perspektivli gəncləri yüksək vəzifələrdə görmək, onların insanlarla rəftarı, əlçatmaz məmur stereotiplərinin qırılması, işlərinə məsuliyyətli yanaşmaları, yenilikçi ideyaları, Azərbaycanın inkişafı üçün əllərindən gələn hər şeyi etmələrini görmək bizləri sevindirir və qürurlandırır".

Türkiyədə fəaliyyət göstərən "Edison" hüquq bürosunun sədri Ruslan Edison və Almaniyada miqrasiya və qaçqın məsələləri üzrə ictimai fəaliyyətlə məşğul olan Nurlan Məmmədovun "Liderliyin İkişafı Proqramı" haqqında fikirləri isə belədir: "Layihədən hər birimiz, həm iştirakçılar, həm də dövlət strukturları faydalandı. Hər bir tanışlıq yeni bir addım sayıla bilər və hər bir addım Azərbaycan dövləti üçün, sadəcə, qazanc ola bilər. İştirakçılar diaspor adına dövlət və xalq üçün çalışmaq istəyənlərdir... Yüksək vəzifəli şəxslərlə görüşlər Avropa standartlarına uyğun keçirildi. Ölkədə islahatların aparıldığı və inkişaf hiss olunur. "ASAN xidmət" məni çox təəccübləndirdi. Bu xidmət bir çox Avropa ölkəsinə örnək ola biləcək xidmətdir. Yumşaq atmosferli, yüksək kadrlarla təmsil olunan Prezident Aparatı, Milli Məclis, Miqrasiya Xidməti ilə tanış olduq. Prezident Aparatında aparılan səmimi söhbətlər xaricdə yaşayan azərbaycanlılara ciddi münasibət olduğunu göstərdi. Burada gələcək planlar və qarşılıqlı əməkdaşlıqda dəstək olacaqlarını bildirmələri bizim üçün çox maraqlı oldu. Layihə çox mühüm oldu.

Bir çox layihə üzərində işləyirik və onların reallaşacağına ümid edirik. Arzu edərdim ki, proqramda gələcəkdə seminarlar nəzərdə tutulsun. İlk liderlərlə irəlidə davamlı əməkdaşlıq və birlikdə görüşlərin keçirilməsini arzu edərdim. Yeni proqramlarda Azərbaycan tarixinə yer ayrılması yaxşı olardı. Qarabağ mövzusunda məlumatlandırma olsun.

**Yaxşı olardı ki, Səhiyyə Nazirliyində görüşlər də təşkil olunsun. Layihə üçün komitəyə təşəkkür edirik" - deyə hər iki iştirakçı bildirib.**

*İradə SARIYEVA*

# "Parklanma ödənişsizdir", ancaq ödəməlisiniz - Bakı küçələrində əcaib məntiq, BNA nə deyir...

**Məlum olduğu kimi, yanvarın 16-dan etibarən vətəndaşlardan daxil olan çoxsaylı müraciətlər nəzərə alınaraq, Bakı şəhərinin əsas küçə və prospektlərində parklanma yerlərinin ödənişsiz olduğunu bildirən məlumat lövhələri quraşdırılıb.**




***Ərşad Hüseynov:** "Sürücülərdən parklanmaya görə ödəniş tələb olunsa da, həmin şəxslərə ödəniş etməsinlər"*

***Bakı Nəqliyyat Agentliyi:** "Sürücülər parkinq üçün heç bir şəxsə ödəniş etməməlidirlər"*

Bakı Nəqliyyat Agentliyinin yaydığı məlumatda qeyd olunur ki, Nazirlər Kabineti tərəfindən küçə parklanmasına görə qiymətlər müəyyən edilənədək yalnız bu lövhələrin quraşdırıldığı ərazilər deyil, dayanma və durmanın qadağan olunmadığı digər ərazilərdə də parklanma ödənişsizdir.

Parklanmanın pulsuz olması barədə məlumat lövhələri qoyulsa da, bəzi ərazilərdə elə həmin lövhələrin yanında minik vasitəsini park edən şəxslərdən parklanma üçün müəyyən məbləğdə vəsait ödənilməsini tələb edirlər. Qeyd edək ki, həmin lövhələrdə açıq-aşkar bildirilir ki, sürücülərdən parklanmaya görə pul tələb edilmir. Ancaq buna baxmayaraq, məlumat lövhəsinin düz altında saxlanan hər bir avtomobildən yenə ödəniş alınır.

Məsələ ilə bağlı Bakı Nəqliyyat Agentliyinə müraciət etdik. Agentlikdən bizə bildirildi ki, artıq bununla bağlı hüquq-mühafizə orqanlarına müraciət edilib: "Məlumat lövhələrinin parklanma yeri olan bütün küçələrdə quraşdırılması nəzərdə tutulur. Sürücülər parkinq üçün heç bir şəxsə ödəniş etməməlidirlər".

Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov bildirdi ki, artıq neçə ildir bu məsələ gündəmdə idi: "Sürücülər parklanmaya görə tələb edilən ödənişdən narazılıq edirdilər. Bu sahə ilə bağlı çoxlu sayda qanunsuzluq qeydə alınırdı. Sevindici haldır ki, Bakı Nəqliyyat Agentliyi parklanmaya görə şəhərin küçələrində ödənişin tələb olunmaması barədə məlumat lövhələri qoyub.

**Təəssüf ki, bəzi işbazlar həmin lövhələrin olmasına baxmayaraq, yenə də sürücülərdən pul tələb edirlər. Sürücülər bu məsələdə aktiv olmalıdırlar. Onlardan parklanmaya görə ödəniş tələb olunsa da, həmin şəxslərə ödəniş etməsinlər. Bununla bağlı aidiyyəti qurumlara müraciət etsinlər".**

*Günel CƏLİLOVA*

# Təhsil modelimizdə daha bir yenilik - orta məktəbləri vaxtından əvvəl bitirmək mümkün olacaq...

## "İmtahanlar dövlət hesabına həyata keçirilir"

**Son illər respublikamızda orta təhsil sahəsində baş verən islahatlar bir sıra yeniliklər gətirib. Yeniliklərdən biri də orta təhsili vaxtından əvvəl bitirmək istəyən şagirdlərlə bağlıdır.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) yaydığı məlumata görə, ümumi təhsilin hər hansı səviyyəsini vaxtından əvvəl bitirmək istəyən istedadlı şagirdlər üçün yanvarın 17-də eksternat qaydasında imtahan keçirilir. Eksternat imtahanı paytaxtdakı 175 nömrəli tam orta məktəbdə təşkil olunub.

Qeydiyyatdan keçmiş məktəblilərin biliyi test imtahanı vasitəsilə yoxlanacaq. İmtahan sualları hər fəndən 10 sual olmaqla fənn proqramlarına uyğun hazırlanacaq və nəticələr BŞTİ tərəfindən yaradılmış komissiya tərəfindən 100 ballıq şkala üzrə qiymətləndiriləcək. Test imtahanından uğurla keçən istedadlı şagirdlər müsahibəyə cəlb olunacaqlar.

Qeyd edək ki, istedadlı şagirdlər üçün təşkil olunan eksternat imtahanı Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsinin ibtidai, ümumi orta və tam orta təhsil səviyyələrinin vaxtından əvvəl bitirilməsi Qaydaları"na əsasən keçirilir.

Bu imtahanda hansı sinif şagirdləri iştirak edirlər? İmtahan ödənişlidir, yoxsa ödənişsiz? Bu imtahan iştirakçılara və nəticə əldə edənlərə hansı üstünlüklər, şanslar qazandıracaq?

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) mətbuat xidmətindən sorğumuza cavab olaraq bildirdilər ki, bu, ibtidai təhsildə III, ümumi orta təhsildə VIII, tam orta təhsildə X sinif şagirdlərinə şamil olunur. "İstedadlı şagirdlər üçün təşkil olunan eksternat imtahanı Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsinin ibtidai, ümumi orta və tam orta təhsil səviyyələrinin vaxtından əvvəl bitirilməsi Qaydaları"na əsasən keçirilir. Ümumi təhsil üzrə təhsil səviyyələrini vaxtından əvvəl bitirmə yalnız ibtidai təhsildə III, ümumi orta təhsildə VIII, tam orta təhsildə X sinif şagirdlərinə şamil olunur. Hər hansı bir şagird ümumi təhsil pilləsində oxuduğu müddətdə təhsil səviyyələrindən yalnız birini vaxtından əvvəl bitirə bilər".

İmtahanın ödənişli, yoxsa ödənişsiz olduğuna gəlincə, qurumdan bildirdilər ki, imtahan iştirakçıları heç bir ödəniş etmirlər: "İmtahanlar dövlət hesabına həyata keçirilir. Ümumi təhsilin hər hansı səviyyəsini vaxtından əvvəl bitirmək istəyən istedadlı şagirdlər üçün keçirilən eksternat qaydasında imtahanda iştirak edib uğur qazanmış 3-cü sinfin I yarımilində oxuyan şagird IV sinfin II yarımilində, VIII sinfin I yarımilində oxuyan şagird IX sinfin II yarımilində, X sinfin I yarımilində oxuyan şagird isə XI sinfin II yarımilində təhsilini davam etdirmək şansı qazanır".

Tanınmış təhsil eksperti Məlahət Mürşüdlü "Bakı-Xəbər"ə bildirdi ki, dövlət tərəfindən istedadlı şagirdlər üçün eksternat imtahanın keçirilməsi çox müsbətdir və bunun olduqca böyük faydaları var: "Bu, şagirdləri təhsilə, dərsə motivasiya edən bir prosesdir, amildir. Xüsusən istedadlı uşaqların bu imtahana cəlb edilməsi baxımından çox əhəmiyyətlidir. İllərdir biz tədris prosesində həddən artıq istedadlı uşaqların olduğunu müşahidə edirik, onlar sinif yoldaşlarından fərqli olaraq proqram materiallarını daha tez mənimsəyirlər. Bu səbəbdən də şagird yoldaşları ilə bərabər eyni proqramı təkrarlamaq onlar üçün maraqlı olmur. Bu baxımdan, ümumi təhsilin hər hansı səviyyəsini vaxtından əvvəl bitirmək istəyən istedadlı şagirdlər üçün keçirilən imtahan həmin şagirdlərin qarşısında yeni şanslar, imkanlar açır. Çox yaxşı yadımdadır, 1987-ci ildə Bakı şəhərindəki 41 nömrəli orta məktəbin bütöv bir sinfi eksternat imtahan yolu ilə III sinifdən IV sinfə keçmişdilər. O siniflə bağlı çox ciddi yoxlamalar oldu, şagirdlərin biliyini çox sınaqlara çəkdilər, amma nəticədə onlar üçüncü sinfi oxumadan birbaşa dördüncü sinfə adladılar. Müəllimləri də çox güclü idi. 25 nəfər şagirdin dördüncü sinfə adlamasının şahidi olmuşam. Dövlət tərəfindən təşkil olunan bu imtahan istedadlı, tədris proqramını vaxtından əvvəl mənimsəmiş şagirdlərə imkan verir ki, onlar digərlərindən fərqli olaraq tədris müddətini daha tez başa vursunlar".

Bu imtahanların kifayət qədər şəffaflıq şəraitində keçirildiyinə inandığını bildirən M.Mürşüdlü hesab edir ki, bu şagirdlər məktəbi vaxtından əvvəl bitirməklə yeni şanslar əldə edirlər: "Mən bu imtahanın keçirilməsində hər hansı bir neqativ halın baş verməsinə inanmıram, bunu inkar edirəm. Prosesin tam şəffaf keçirildiyinə inanıram. Çünki dövlət də, valideynlər də, təhsil ictimaiyyəti də imtahanda maraqlıdır. Elmli, bilikli, istedadlı şagirdlərin məktəbi yaşıdları ilə müqayisədə tez bitirməsini, onların təhsildə daha böyük uğurlar əldə etməsinə motivasiya edən bu imtahan həm də şagirdlərin özlərini təsdiq, realizə etmək imkanı əldə etməsinə şərait yaradır" - deyə M.Mürşüdlü qeyd etdi.

***İradə SARIYEVA***



***Bakı Şəhəri üzrə Təhsil İdarəsi:*** *"Ümumi təhsil üzrə təhsil səviyyələrini vaxtından əvvəl bitirmə yalnız ibtidai təhsildə III, ümumi orta təhsildə VIII, tam orta təhsildə X sinif şagirdlərinə şamil olunur"*

***Məlahət Mürşüdlü:*** *"...həmin şagirdlərin qarşısında yeni şanslar, imkanlar açır"*

# Qan xərçəngli uşaqlar dövlətin dərmanlarını ala bilmir - Depoda dərman qıtlığının səbəbləri...

**Yayılan məlumatlara görə, Azərbaycanda qan xərçəngindən əziyyət çəkən yüzlərlə leykemiyalı uşaq dövlət tərəfindən verilən dərmanları ala bilmir. Səbəb kimi B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda (Qanköçürmə İnstitutu) müalicə alan xəstələrə verilən "Vincristine" tərkibli "Vinkristin" adlı və "Merkaptopturin" tərkibli "Merpurin" dərmanlarının depoda olmaması qeyd olunur.**

***Mehriban Bağırova:** "Uşaqların dərmanla təminatında vəziyyət olduqca acınacaqlıdır"*

***Rəvanə Əliyeva:** "İlin əvvəlidir və lazımi dərmanlar sifariş edilib"*

Ancaq maraqlı məqam ondan ibarətdir ki, adıçəkilən dərmanların bəzisi aptekdə satılır. Lakin həmin dərmanların satış qiyməti olduqca bahadır.

Leykemiya ilə mübarizə İctimai Birliyinin direktoru Mehriban Bağırova bildirdi ki, uşaqların dərmanla təminatında vəziyyət olduqca acınacaqlıdır: "Merpurin" adlı dərmanı leykemiyalı uşaq hər gün qəbul etməlidir, amma yoxdur. 1-2 aydır vəziyyət belədir. Dərmanları Səhiyyə Nazirliyinin İnnovasiya Mərkəzi alır, Hemotologiya İnstitutuna verirdi. İndi bir çox tibbi müəssisənin TƏBİB-ə verilməsi ilə əlaqədar struktur dəyişikliyi getdiyindən, ya icbari tibbi sığortaya keçidlə bağlıdır, ya bu dərmanları ölkəyə gətirən şirkət daha gətirmir, dəqiq bir səbəb deyilmədən, tapılmadan dərmanlar yoxa çıxıb.

Valideynlər çox çarəsiz qalıblar. Biz xeyriyyə aksiyaları ilə çağırış edib, gücümüz çatandan pul yığıb, dərman almağa, tapmağa çalışırıq.

Məlumat üçün bildirim ki, vinkristin dərmanı aptekdə 265 manatdır. Bunu kasıb, imkansız, övladı xəstə ana necə alsın? Qan xərçəngi elə ağır xəstəlikdir ki, bir gün müalicə dayansa, uşaqların vəziyyəti pisləşər, remissiyada olan uşaqlara yenidən xəstəlik qayıda bilər. Bu da həm uşaqların, həm həkim və valideynlərin bu günə kimi çəkdiyi əziyyəti heçə endirər".



Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) mətbuat katibi Rəvanə Əliyeva isə qeyd etdi ki, o, bundan xəbərdardır: "Məlum olduğu kimi, Prezident İlham Əliyev Milli Hematologiya və Transfuziologiya Mərkəzinin yaradılması haqqında Fərman imzalayıb. Fərmana əsasən, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Talassemiya Mərkəzi publik hüquqi şəxsin və B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun birləşmə formasında yenidən təşkili yolu ilə TƏBİB-in tabeliyində publik hüquqi şəxs statuslu Milli Hematologiya və Transfuziologiya Mərkəzi yaradılıb.

Bununla əlaqədar hazırda qurumda təhvil-təslim prosesi gedir. Dərmanlarla bağlı problemin həlli üçün isə maksimum çalışılır. İlin əvvəlidir və lazımi dərmanlar sifariş edilib. Qısa müddət ərzində müalicə alan xəstələr dərmanlarla təchiz olunacaqlar. Onu da bildirim ki, mərkəzdə təchizat bu il yüksək səviyyədə təşkil olunacaq".

*Günel CƏLİLOVA*

# Əmək müqavilələrinin say məsələsində özəl müəssisələr dövləti üstələdi - artan say fərqi nə ilə bağlıdır...

**Özəl sektorda əmək müqavilələrinin qeydiyyatının artımı dövlət sektorundakı həmin göstəricini 3 dəfə üstələyib. Bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov 2019-cu ildə sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş mətbuat konfransında deyib.**

*"Bu səbəbdən sözügedən sektorda əmək müqaviləsi bağlayanların sayı artıb"*

***Sahib Məmmədov:** "Vergilər Nazirliyinin özəl sektorda həyata keçirdiyi geniş tədbirlər nəticəsində bu sahədə qeyri-formal məşğulluğun qarşısı xeyli alındı"*

Nazir bildirib ki, 2019-cu ildə dövlət sektorunda əmək müqavilələrinin qeydiyyatının artımı 6,6 faiz təşkil edib. Ancaq bundan fərqli olaraq, özəl sektorda əmək müqavilələrinin sayı artıb. M.Cabbarov qeyd edib ki, özəl sektorda əmək müqavilələrinin qeydiyyatının artımı 18,3 faiz təşkil edib ki, bu da dövlət sektorundan 3 dəfə çoxdur: "Əmək bazarının leqallaşdırılması məqsədilə ötən il qeyri-neft özəl sektorda çalışan işçilərin 8000 manatadək olan əməkhaqları gəlir vergisindən azad olunub. Nəticədə 300 milyon manatdan çox vəsait işləyənlərin sərəncamında qalıb. Bu islahatın səmərəsi əmək müqavilələrinin dinamikasında aydın müşahidə olunub. 2019-cu ildə qeyri-dövlət sektorunda bağlanmış əmək müqavilələrinin sayı 99 minə yaxın (18,3 faiz) artıb. Qeyd olunan islahat sayəsində, həmçinin, əməkhaqlarının artırılması nəticəsində əməkhaqqı fondunun artması müşahidə edilib".

Görünən odur ki, əvvəlki illərə baxanda özəl sektorda əmək müqaviləsi bağlayanların sayı daha çoxdur. Vəziyyət o yerə çatıb ki, özəl sektor ötən il bu göstəriciyə görə dövlət bölməsini bir neçə dəfə üstələyib.

Maraqlıdır, özəl sektorun əmək müqavilələri ilə bağlı dövlət sektorunu üstələməsi nə ilə bağlıdır?

Sözügedən məsələyə aydınlıq gətirən Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqasının sədri Sahib Məmmədov bunu bir sıra amillərlə əlaqələndirdi: "Məsələ ondadır ki, dövlət sektorunda və dövlətin tabeliyində olan təsərrüfat sektorunda işçilərlə birmənalı olaraq əmək müqaviləsi bağlanır. Yəni bu sektorda qeyri-formallıq yoxdur. Mümkün deyil ki, kimsə dövlət sektorunda işləsin, amma əmək müqaviləsi olmasın. Yaxud da hansısa büdcə təşkilatında əmək müqaviləsiz çalışsın. Kim işə götürülürsə, əmək fəaliyyəti rəsmiləşdirilir. Ancaq dövlət sektorundan fərqli olaraq, özəl sektorda işçilərin əmək müqaviləsiz işlədilməsi adi haldır. Bu sahədə işçilərin müqaviləsiz işlədilməsi halları çoxdur. Lakin ötən il Vergilər Nazirliyinin özəl sektorda həyata keçirdiyi geniş tədbirlər nəticəsində bu sahədə qeyri-formal məşğulluğun qarşısı xeyli alındı.



Qeyri-formal əmək bazarından formal əmək bazarına keçid nəticəsində əmək müqavilələrinin sayı artıb. Qeyri-formal əmək bazarı özəl sektora aid olduğu üçün, əmək müqavilələrinin bağlanması faizi orada artıb. Əvvəlki kimi, əmək müqaviləsiz işçini işlədə bilmirlər. Bax, bu səbəblərdən sözügedən sektorda əmək müqaviləsi bağlayanların sayı artıb".

*Vidadi ORDAHALLI*

№ 9 (4140) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

18 YANVAR 2020-ci il

www.baki-xeber.com

## "Nar" 4,5G baza stansiyalarının sayını 60% artırıb

**Əhalini yüksək keyfiyyətli və sürətli şəbəkə ilə təmin etməyi hədəfləyən "Nar" 2019-cu ildə şəbəkə tutumunun genişləndirilməsi istiqamətində görülən işlərlə bağlı hesabatını açıqlayıb.**

Belə ki, mobil operator ötən il ərzində 1055-dən artıq 4G/4,5G texnologiyalı baza stansiyası quraşdırıb. Bununla da "Nar" 4G/4,5G texnologiyalı baza stansiyalarının sayını 60%-dən çox artıraraq, 2779-a çatdırıb. Mobil operator ötən il ərzində 230-dan çox 3G texnologiyalı baza stansiyası quraşdırıb və hazırda 3G texnologiyalı baza stansiyalarının sayı 2854 olub.

"Nar" 2019-cu il ərzində 4G/4,5G baza stansiyalarının coğrafi əhatə dairəsini 245%, ölkə əhalisi üzrə əhatə dairəsini isə 80% artırmağa nail olub. Hazırda "Nar" 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

Qeyd edək ki, "Nar" Bakı və Abşeron yarımadası ilə yanaşı, Azərbaycanın regionlarını da keyfiyyətli şəbəkə ilə təmin etməyə xüsusi diqqət göstərir. Mobil operator LTE-A texnologiyalı baza stansiyalarını ölkənin 54 regionunda quraşdırmağa nail olub. Hazırda ucqar kəndlərdə belə abunəçilər "Nar"ın yüksək keyfiyyətli 4G şəbəkəsindən yararlana bilirlər. Mobil operatorun 4G/4,5G istifadəçilərinin 67%-i Bakının, 33%-i isə regionların payına düşür.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.



## Dünyanın ən dayanıqlı batareyası...

**Con Hopkins Universitetinin Tətbiqi fizika laboratoriyasının alimləri dünyada ən dayanıqlı batareya hazırlayıblar.**

Yenilik yanğına, istənilən kimyəvi birləşmələrə, suya və hətta gülləyə dayanıqlıdır. "İctnews.az" bildirir ki, Con Hopkins Universitetinin Tətbiqi fizika laboratoriyasının fiziklərinin rəhbərliyi altında çalışan tədqiqatçılar komandası 5 il ərzində istənilən növ deformasiyalara qarşı dayanıqlı olan litium-ion batareyası üzərində işləyirdi. Alimlər sözügedən batareya üzərində müxtəlif əməliyyatları (kəsmək, əymək, güllə ilə vurmaq və müxtəlif kimyəvi maddələrin təsirinə məruz qoymaq) sınaqdan keçiriblər, lakin o öz işinə davam edib. Bu batareya, həmçinin odadavamlıdır.

## "Azercell"in dəstəyilə məktəblilərimiz bu ilin ilk uğuruna imza atdı

**2020-ci ilin 8-15 yanvar tarixlərində Qazaxıstanın Almatı şəhərində 16-cı Beynəlxalq Jautikov Olimpiadası baş tutub. 20 ölkədən 82-i komandanın qatıldığı bu olimpiadada məktəblilərimiz 1 qızıl, 3 gümüş və 4 bürünc medal qazanıblar.**

Qeyd edək ki, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Abutalıb Namazov informatika fənni üzrə qızıl medala layiq görülməklə, bu fənn üzrə beynəlxalq olimpiadalar tariximizdə ilk mükafatı Azərbaycana gətirib. Eyni zamanda, həmin liseyin 11-ci sinif şagirdi Murad Eynizadə gümüş və Gəncə şəhər 15 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Əziz Hüseynov bürünc medal qazanıblar. Riyaziyyat fənni üzrə Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdləri Murad Ağazadə və Abbas Məmmədov gümüş, 9-cu sinif şagirdi Toğrul Abbasov və Şuşa rayon Malıbəyli kənd 1 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Vüqar Quliyev bürünc medal ilə təltif olunublar. Həmçinin, fizika fənni üzrə ölkəmizi olimpiadada layiqincə təmsil edərək, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Məhəmməd Yusifov bürünc medal qazanıb.

Məktəblilərimizin bu uğurunda "Azercell Telekom" MMC-nin xüsusi əməyi var. Belə ki, Təhsil Nazirliyi və "Azercell"in dəstəyilə təşkil olunan mərkəzlərdə şagirdlər informatika fənni üzrə Beynəlxalq Olimpiadalara hazırlaşa, öz elmi potensiallarını nümayiş etdirə bilirlər.

Xatırladaq ki, "Azercell" cari ilin avqust ayında ölkəmizin evsahibliyi etdiyi 31-ci Beynəlxalq İnformatika Olimpiadasının rəqəmsal sponsoru qismində təmsil olunub. Olimpiadaya Azərbaycan komandası da daxil olmaqla, 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət rəsmi nümayəndə heyəti qatılıb.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.



## TƏBRİK!

Ailə üzvləri, həyat yoldaşı Amaliya xanım, oğlu İdris, qızı Nərmin Gündüz müəllimi ad günü münasibətilə təbrik edir, ona uzun ömür və can sağlığı arzulayırlar. Təbrikə xüsusi olaraq qaynanası Gülbəstə xanım da qoşulur.

Ad günün mübarək!

## Elan

Qasımov Asif Salman oğlunun adına, Bakı şəhəri, Xəzər rayonu, Albalılıq, ev 11, mənzil 34 ünvanının çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

---

Əliyeva Tamara Konstantinovnaya məxsus, Goradil bağlar sahəsində yerləşən N256a saylı bağa verilmiş order itdiyi üçün etibarsız sayılır.

---

Əliyev Rəşad Məmməd oğlu və Əliyev Fərhad Məmməd oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, Goradil kəndindəki bağ evi N805 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Bu gün çoxsaylı çətinlikliklərlə yadda qalacaq. Onların öhdəsindən gəlməyin ən asan yolu çətinliklərə o qədər böyük əhəmiyyət verməməkdir. Əməkdaşlığa başlamaq olar. Amma yalnız bir halda ki, potensial müttəfiqinizlə siz eyni ritmdə hərəkət edəsiniz.



**Buğa** - Bu gün sizin üçün yaxşılığa doğru dəyişikliklərlə əlamətdar olacaq. Düzdür, bu dəyişikliklər çox əhəmiyyətli yox, amma çoxdan gözlənilləndir. Addımlarınız rəqib və bədxahlarınızı dalana dirəyəcək, sizə isə ciddi üstünlük qazandıracaq.



**Əkizlər** - Yüksək işgüzarlıq günüdür. Əgər xüsusi nəsə planlaşdırmasanız belə, işlərin özü ortaya çıxacaq. Bu gün ciddi uğurlara bel bağlaya bilərsiniz. İşgüzar əlaqələrin qurulması üçün münasib gündür.



**Xərçəng** - Şəxsi həyatda yaxşılığa doğru dəyişikliklərə nail olmaq olar. Amma bu, öz üzərinizdə ciddi işləməyi, baxışlarınızı bir daha nəzərdən keçirməyi tələb edir. Mövcud problemləri inkar etməyə çalışmayın.



**Şir** - Pul saymaq bacarığı lazımınız olacaq. Üstəlik, tək özünüzün yox, həm də başqalarının pulunu. Lakin bunu yalnız intuisiyasına yox, soyuq məntiqə əsaslanan adamlar bacaracaqlar.



**Qız** - İndi uzunmüddətli planlar (o cümlədən, maliyyə sahəsində) qurmaq və qarşınızda yeni hədəflər qoymaq olar. Ünsiyyət dairəniz genişlənəcək, ətrafınızda həm effektli, həm də maraqlı əməkdaşlıq üçün münasib adamları görəcəksiniz.



**Tərəzi** - İş sahəsində ciddi problemlərin yaranacağı əlverişsiz gündür. Bu gün çoxları başqalarının hərkətlərinin səbəb və bəhanələri ilə maraqlanmadan baltanı kökündən vuracaq.



**Əqrəb** - Təəssüf ki, evdə də vəziyyət yaxşılığa doğru dəyişməyəcək. Münaqişələr və inciklikər çox olacaq. Digər tərəfdən, belə problemlər bu gün nə qədər çox olsa, sabah bir o qədər az olacaq.



**Oxatan** - Bu gün maraqlı imkanlar açacaq. Amma təəssüf ki, onların hamısından yararlanmaq mümkün olmayacaq. Nəinki tez, həm də düşünülmüş hərəkət etmək lazımdır ki, heç bir səy hədər getməsin.



**Oğlaq** - Gün problem və sınaqlarla zəngindir. Baş verənləri aydınlaşdırmaq üçün diqqəti cəm etmək lazımdır. Amma məsələ burasındadır ki, diqqətinizi yayındıracaq və sizi narahat edəcəklər.



**Dolça** - Çox güman ki, bu gün sizin üçün əlverişsiz olacaq. Səfərlər məsləhət deyil. Hədər yerə çox vaxt sərf edəcəksiniz. Can atdığınız şeyi əldə etsəniz də, bu, böyük səylər hesabına başa gələcək.



**Balıqlar** - Bu gün çətin ki Balıqların zövqüncə olsun. Bürcün nümayəndələri özlərini yaxşı tərəfdən göstərmək imkanı əldə edə bilməyəcək və buna görə əməlli-başlı məyus olacaqlar.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyanın ən yaşlı sakini 117 yaşını qeyd etdi



**Dünyanın ən yaşlı sakini Kane Tanaka 117 yaşını qeyd edib. "Qafqazinfo" xəbər verir ki, bu münasibətlə onun yaşadığı "qocalar evi"ndə tədbir keçirilib.**

Müəssisə rəhbərliyi tərəfindən təşkil olunmuş şadlığa digər sakinlər də qatılıb. Məclisin əsas təamı çiyələk və kremlə bəzədilmiş böyük tort olub. "Çox dadlıdır. Yenə istəyirəm", - "Kiodo" agentliyi səbəbkarın sözlərini sitat gətirib. Kane Tanakanın adı 2019-cu ilin 9 mart tarixində "Ginnesin Rekordlar Kitabı"na daxil edilib. O vaxt onun 116 yaşı olub. Tanaka 1903-cü il yanvarın 2-də Fukuoka bələdiyyəsində anadan olub.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.